

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 27 (24.409)

*13 iyul 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# 14 iyul 1969-cu il

# 55 İLLİK ŞƏRƏFLİ TARİX



## Ulu Öndər Heydər ƏLİYEV:

***“Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqa arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.”***

14 iyul 1969-cu il Azərbaycan tarixinə qızıl hərflərlə yazılan bir gündür. 2024-cü il iyulun 14-də Azərbaycan xalqının dünyaya bəxş etdiyi qüdrətli şəxsiyyət, böyük dövlət xadimi, xilaskar və qurucu lider Heydər Əliyevin hakimiyyətə gəlməsinin 55 illiyi tamam olur. ***“Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır”***, – deyən Ümummilli Lider Heydər Əliyevin ən böyük xoşbəxtliyi onun adının müstəqil Azərbaycan dövləti ilə birgə çəkilməsi, qüdrətli şəxsiyyət kimi Azərbaycan xalqının taleyinə qurtuluş tarixini yazmasıdır. Ulu Öndərin azərbaycanlı olmağı ilə fəxr edərək sonsuz iftixar və qürur hissi ilə səsləndirdiyi ***“Azərbaycan mənim qibləgahımdır!”*** fikrini dahi ömrünün manifesti hesab etmək olar.

Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. Dünyaşöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaratmışdır. Buna görə də Ümummilli Liderimizin xalqa xidmətdə keçmiş parlaq və mənalı ömrünün hər anı siyasi təqvimimizdə özünəməxsus yerə malikdir. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Sərəncamında da deyildiyi kimi: *“Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur... Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soykökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir”.*

55 il bundan əvvəl Ümummilli Lider Heydər Əliyev tərəfindən elan olunmuş siyasi-iqtisadi müstəqillik kursu, inkişafın milli intibaha yönəldilmiş modeli Azərbaycana yeni həyat bəxş etdi. Azərbaycan ittifaq iqtisadiyyatının xammal və aqrar əlavəsindən müxtəlif sahələrdə hərtərəfli inkişafa qovuşan nəhəng infrastruktur ölkəsinə çevrildi. Bu dövrdə Azərbaycanın gələcək müstəqilliyi üçün atılan addımlar, həyata keçirilən məhsuldar fəaliyyət Heydər Əliyev quruculuq xəttinin siyasi əsasını təşkil edirdi. Ümummilli Lider o illəri xatırlayarkən deyirdi: ***“1970-ci illərdə görülən işlər, yaradılan bu böyük iqtisadiyyat, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər, yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Bu gün bəyan etmək istəyirəm ki, o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdüm. O işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır”.***

Səhifə ⇨ 6-7


Biz birlikdə güclüyük! 2
Azərbaycanın müasir təhsil sistemində yenilik 3
Naxçıvanda “14 iyul 1969-cu il: Azərbaycanda milli intibahın başlanğıcı” adlı konfrans keçirilib 4
Mahiyyəti əsrarəngiz və ecazkar naxışlar səltənəti NAXÇIVAN 10
Türk dünyasının Zəfər zirvəsi 10
Dünyanı bir ovuca sığdıran kənd – Havuş 11

# Biz birlikdə güclüyük!




# Qarabağ Bəyannaməsi:

## *Türk birliyinin inkişaf əsrinə mühüm töhfə*

Ötən həftə Şuşa Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü ilə yadda qaldı. Dünyanın diqqət mərkəzində olan bu görüş bir daha dövlətimizin gücünün, siyasi arenada qazandığı nüfuzunun, ölkə başçısı Prezident cənab İlham Əliyevin əzminin, qətiyyətinin, ona olan inamın, etimadın göstəricisi idi.




## Prezident İlham ƏLİYEV:

***“Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, Türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir.”***

Dövlət başçısı bu il fevralın 14-də andiçmə mərasimindəki nitqində Türk Dövlətləri Təşkilatına böyük önəm verərək demişdir: ***“Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik”.***

***Niyə məhz Şuşa?***

Türk dövlətləri liderlərinin Şuşa seçimi, ilk növbədə, onun Vətən müharibəsində əldə edilən şanlı Zəfərin rəmzi olması ilə bağlıdır. Şuşanın azad edilməsi tariximizin parlaq səhifəsidir. Qarabağın incisi xalqımızın cəsarətinin, birliyinin, əyilməz ruhunun, dirçələn ümidlərinin, sülhün, qəhrəmanlığın rəmzidir. Azərbaycanın, Türk dünyasının Mədəniyyət paytaxtı olan Şuşa bu gün yenidən dirçəlib, artıq öz doğma sakinlərinə qucaq açıb, hər gün daha da gözəlləşir. Qarabağ və Şərqi Zəngəzurda Böyük Qayıdış Proqramının uğurlu icrası nəticəsində bu günə qədər 8 minə yaxın keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Azad edilmiş torpaqlarımız bu ilin sonuna qədər daha 20 min insana öz qapılarını açacaq.

Bu gün Şuşa həm də qardaşlıq diyarına, Türk dünyasının birlik qalasına çevrilib. Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün burada təşkili həm də bundan irəli gəlir. Xatırladaq ki, Türk Dövlətləri Təşkilatının əsası məhz Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2009-cu ildə Naxçıvanda qoyulub. Şuşa həm də Türk dünyasının kollektiv təhlükəsizliyinə zəmanət verən şəhərdir. Xatırladaq ki, 2021-ci ilin 15 iyununda Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərini ən yüksək səviyyədə rəsmiləşdirən, ölkələrimizin təhlükəsizliyinə və sülhə möhkəm hüquqi əsaslar yaradan Şuşa Bəyannaməsi imzalanıb.Türk Dövlətləri Təşkilatında birləşən ölkələr günügündən siyasi, iqtisadi, mədəni, hərbi, nəqliyyat və digər istiqamətlərdə əməkdaşlığı genişləndirirlər.



Sevindiricidir ki, TDT də Şuşanın, Qarabağın mədəni həyatının dirçəldilməsinə böyük maraq göstərir. Türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri, orada qardaşlıq rəmzi olan məktəblərin, yaradıcılıq mərkəzlərinin açılışı bunun bariz nümunəsidir.

***Qarabağda Zəfər zirvəsi***

İyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü türk dövlətlərinin birliyinin, qardaşlığının, dostluğunun növbəti təzahürü, qalib dövlət kimi Azərbaycanın Vətən müharibəsində əldə etdiyi şanlı Zəfərin növbəti böyük təntənəsi idi. Prezident cənab İlham Əliyev buradakı çıxışında dedi: ***“XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır”.***

Böyük coğrafiyanı əhatə edən türk dövlətlərini bir-birinə zəngin və qədim tarix, mədəni bağlar, eyni etnik köklər birləşdirir. Türk dünyasının qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi ölkəmiz tərəfindən həmişə dəstəklənib. Zirvə görüşü qarşıdakı hədəflərin reallaşdırılması üçün atılacaq addımlar, Şərq-Qərb nəqliyyat dəhlizinin genişləndirilməsi, Orta Dəhlizin ayrılmaz bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükaşırma qabiliyyətinin artırılması, Azərbaycanın türk dövlətləri üçün önəmli tranzit xidmətlərində rolu, enerji sahəsində strateji tərəfdaşlıq əlaqələrinin müzakirəsi baxımından yaddaqalan oldu. Ölkəmizin bu il ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında – COP29 konfransında türk dövlət başçıları fəal iştirak edəcəklərini diqqətə çatdırdılar və iqlim məsələləri ilə bağlı Türk dünyası ilə əməkdaşlığı gücləndirməyə hazır olduqlarını bildirdilər, Azərbaycan və Ermənistan arasında sülh prosesini dəstəklədiklərini bir daha ifadə etdilər. Aydındır ki, Cənubi Qafqazda davamlı sülhün və sabitliyin bərqərar olması bütün Türk dünyası üçün böyük imkanlar yaradacaq. Şuşa Zirvə görüşündə müzakirələr, qəbul edilən qərarlar, şübhəsiz, Türk Dövlətləri Təşkilatının gücləndirilməsi işinə öz töhfəsini verəcək.

***Türk dünyasının birliyi və həmrəyliyinin növbəti ifadəsi***

Şuşa şəhərində Azərbaycan, qazax, qırğız, türk və özbək dillərində imzalanan Qarabağ Bəyannaməsi türk dövlətlərinin birliyinin, həmrəyliyinin ifadəsidir. Bu bəyannamə regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının qitə miqyasında töhfələrinin, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarixboyu oynadığı rolunun bariz ifadəsi, dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları üzrə türk dövlətlərinin vahid güc kimi çıxış etməsinin, müvafiq nəqliyyat infrastrukturunun və səmərəli transregional dəhlizlərin yaradılması yolu ilə türk dövlətləri arasında bağlılığın daha da inkişaf etdirilməsinin vacibliyini göstərir. Bəyannamədə iqlim dəyişikliyi və onun türk dövlətlərinin dayanıqlı inkişafına təsirlərinə birgə iqlim fəaliyyəti yolu ilə cavab verilməsində daha sıx əməkdaşlığın zəruri olduğu vurğulanır. Həmçinin Günəş, külək və su elektrik enerjisi kimi təmiz enerji mənbələrinin inteqrasiyasına diqqət yetirilməklə dayanıqlı inkişafın təşviq edilməsi və rəqəmsal infrastruktur, ictimai xidmətlər və dayanıqlı təcrübələrin təkmilləşdirilməsi yolu ilə həyat keyfiyyətini yaxşılaşdırmaq, iqtisadi artımı gücləndirmək, iqlim fəaliyyətini dəstəkləmək üçün türk dövlətləri çərçivəsində “ağıllı şəhər və kəndlər” konsepsiyasının iqlimə davamlılığın inkişafı təşviq edilir və bu xüsusda TDT-nin İqlim və Yaşıl Rəqəmsal Platformasının və TDT-nin İqlimə Davamlı Kəndlər Forumunun yaradılması üzrə müzakirələrin aparılması təşəbbüsü irəli sürülür. Eyni zamanda türk əməkdaşlıq təşkilatları arasında davamlı birliyin və vacib əhəmiyyət kəsb edən məsələlərin birgə həllinin vacibliyi vurğulanır.

Şübhəsiz, Qarabağ Bəyannaməsi gələcəkdə Türk Dövlətləri Təşkilatının dünya miqyasında nüfuzunun gücləndirilməsinə mühüm töhfələr verəcək. Prezident cənab İlham Əliyevin də qeyd etdiyi kimi: ***“Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir… Əminəm ki, bu gün imzalayacağımız Qarabağ Bəyannaməsi, qəbul etdiyimiz qərarlar Türk dünyasının həmrəyliyini və eyni zamanda Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunu daha da gücləndirəcəkdir”.***

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Azərbaycanın müasir təhsil sistemində yenilik

## Qarabağ Universiteti təhsil sahəsində yeni rəqabət mühiti yaradacaq

Şanlı Zəfərimizdən ötən müddətdə işğaldan azad edilən torpaqlarda geniş abadlıq, quruculuq işlərinin şahidi oluruq. Uzun illər ərzində viran edilmiş torpaqlarımız artıq dirçəldilir, yeni binalar, təhsil ocaqları tikilib istifadəyə verilir, məscidlər, tarixi-mədəni abidələr bərpa edilir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulduğu kimi, müasir standartlara cavab verən orta, peşə və ali təhsil müəssisələrinin tikilib istifadəyə verilməsi isə ölkəmizdə təhsil sisteminin inkişafına şərait yaradacaq.



Xankəndidə "Qarabağ Universitetinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ölkəmizdə elmin və təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir nümunəsidir. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərəcək Qarabağ Universiteti publik hüquqi şəxsi regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsinə və tarixən yaradılmış təhsil ənənələrinin yaşadılmasına töhfə olacaq. Prezident cənab İlham Əliyevin iyulun 5-də Xankəndi şəhərində Qarabağ Universitetində görülən işlərlə tanışlığı bu ali təhsil ocağının gələcəkdə ölkənin təhsil sistemində mühüm rolundan, müasir ali təhsil müəssisələri içərisində ön sıralarda yer tutacağından xəbər verir.

***Qarabağ Universitetində təhsil alacaq tələbələr üçün bir sıra imtiyazlar da nəzərdə tutulub. Belə ki, burada təhsil alacaq tələbələr ödənişsiz mənzil tipli yataqxana, təqaüd, həmçinin kompüterlə (notbuk) ilə təmin olunacaqlar. Ən yüksək bal toplayan tələbələrə əlavə təqaüd veriləcək. Tələbələr üçün ekoloji təmiz universitet şəhərciyi yaradılacaq.***

Tarixə nəzər salsaq, görərik ki, Qarabağda fəaliyyət göstərən yeganə ali təhsil ocağı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə məhz Xankəndi şəhərində 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulmuş, 1973-cü ildən 1988-ci ilədək müstəqil ali təhsil müəssisəsi kimi fəaliyyət göstərmiş, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırmışdır. Bu gün Azərbaycanın strateji şəhəri olan Xankəndidə müvafiq səviyyələr üzrə ali təhsil, habelə orta ixtisas və əlavə təhsil proqramlarını həyata keçirəcək, fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparacaq təhsil müəssisəsinin yenidən yaradılması ölkəmizin gücünün, qüdrətinin, əzminin daha bir ifadəsidir.

Universitetin fəaliyyət istiqamətləri ali təhsil ocağının Nizamnaməsində də əksini tapdığı kimi, bakalavriat təhsili səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə genişprofilli ali təhsilli mütəxəssislərin hazırlanması, magistratura təhsili səviyyəsində ixtisaslaşmalar üzrə ayrı-ayrı ixtisas sahələrinin elmi-tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsi, doktorantura təhsili səviyyəsində yüksəkixtisaslı elmi kadrların hazırlanması, ixtisas və elmi dərəcələrin yüksəldilməsi, orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi, elmin müxtəlif sahələri və istiqamətləri üzrə tədqiqatların aparılmasıdır. Universitetdə dərslər bu ilin 15 sentyabrından başlayacaq və kadr hazırlığı Pedaqoji, İncəsənət, Humanitar və sosial elmlər, İqtisadiyyat, Mühəndislik və Turizm fakültələrində aparılacaq. Bu tədris ili üçün universitetdə, ümumilikdə, 27 ixtisas üzrə 1120 tələbənin təhsil alması nəzərdə tutulur. Ali təhsil müəssisəsinin bukleti artıq hazırlanıb, universitetə qəbul planı təsdiqlənib. Universitetdə təhsil alacaq tələbələr ödənişsiz əsaslarla təhsil alacaq, ödənişsiz yataqxana ilə təmin olunacaqlar, dövlət tərəfindən pulsuz kompüterlər veriləcək. Bununla yanaşı, yüksək bal ilə qəbul olanlara əlavə təqaüdlərin verilməsi də nəzərdə tutulub. Həmçinin tələbələr üçün ekoloji təmiz universitet şəhərciyi yaradılacaq.



Ölkə başçısı Qarabağ Universitetinin fəaliyyətinin təşkili üçün maliyyə vəsaiti ayrılması haqqında Sərəncam imzalayıb. Orada tədris və yataqxana binaları müəyyən edilib, həmçinin tələbələrin asudə vaxtlarını düzgün şəkildə keçirmələri üçün də işlər görülür. Universitetdə 8 ixtisas üzrə SABAH qrupları yaradılacaq. İmtahan və müsahibə yolu ilə 200-250 tələbənin sentyabrda universitetin bu qruplarında təhsil alması planlaşdırılır. Digər universitetlərlə mübadilə və mobillik proqramlarının həyata keçirilməsi, növbəti beş ildə tələbələrin sayının 10 minə çatdırılması, birinci tədris ilində professor-müəllim heyəti və tədqiqatçıların həm daimi əsaslarla, həm də dövri (həftəlik, aylıq, semestrlik və sair) fəaliyyət göstərməsi nəzərdə tutulub. Artıq universitetin ştat cədvəli təsdiq edilib və ilkin olaraq universitetdə zəruri vəzifələr üzrə təyinatlar aparılıb.



Dövlətimizin başçısının ***"Yeni yaradılan Qarabağ Universiteti isə, şübhəsiz, regionda tarixən mövcud olmuş təhsil mühitini çox yaxın vaxtda canlandıracaqdır"*** fikri bir daha onu göstərir ki, tədqiqatyönümlü universitetə çevriləcək Qarabağ Universiteti təhsil sahəsində yeni rəqabət mühiti yaradacaq, Azərbaycanın aparıcı elm və təhsil mərkəzlərindən biri olacaq.

**Güntac ŞAHMƏMMƏDLİ**



# Naxçıvanda “14 iyul 1969-cu il: Azərbaycanda milli intibahın başlanğıcı” adlı konfrans keçirilib





İyulun 12-də Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 55-ci ildönümü münasibətilə Naxçıvanda “14 iyul 1969-cu il: Azərbaycanda milli intibahın başlanğıcı” adlı konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə tər güllər düzüblər.

Sonra Heydər Əliyev Sarayının foyesində təşkil olunan sərgiyə baxış olub. Sərgidə Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində mühafizə olunan və 1969-cu ildə hakimiyyətə gəldikdən sonra Ulu Öndərin Naxçıvan səfərlərinin yaddaqalan məqamlarını, muxtar respublika sakinləri ilə səmimi görüşlərini və mətbuatda çıxışlarını əks etdirən fotolar nümayiş etdirilib.










Sonra konfrans öz işinə başlayıb. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 2024-cü il iyulun 14-də Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 55-ci ildönümü münasibətilə hər kəsi təbrik edib.

Səlahiyyətli nümayəndə qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.

Səlahiyyətli nümayəndə bildirib ki, ötən əsrin 60-cı illərində Azərbaycanda durğunluq hökm sürürdü, respublika iqtisadi göstəricilərinə görə, ittifaq miqyasında sonuncu yerlərdən birində idi. Bu acınacaqlı vəziyyətə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra son qoyulub. Beləliklə, 1969-1982-ci illər Azərbaycan tarixinə intibah dövrü kimi daxil olub. Həmin illərdə 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektlər istifadəyə verilib, 630 min yeni iş yeri açılıb. Sənaye istehsalı 2,7, tələbat mallarının istehsalı 3, kənd təsərrüfatı istehsalı 2,7, neft hasilatı 2,8, maşınqayırma və metal emalı 3,3 dəfə artıb. Əgər 1969-cu ilədək olan 50 il ərzində Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə onların sayı 1048 olub. 1969-1982-ci illərdə 770-ə qədər məktəb binası istifadəyə verilib, respublikada ali məktəblərin sayı 12-dən 17-yə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırılıb.

Fuad Nəcəfli diqqətə çatdırıb ki, ötən əsrin 70-ci illərində Ulu Öndər xalqın yaradıcılıq enerjisini vahid məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində gələcəyə hesablanmış qətiyyətli addımlar atıb, mühüm qərarlar qəbul edib, milli hərbi kadrların yetişdirilməsi məqsədilə 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb yaradılıb. Məhz görülən bu işlərin sayəsində Azərbaycanda milli ruh canlanıb, özünüdərk və soy-kökə qayıdışı təmin edilib, azadlıq və müstəqillik duyğuları milli düşüncədə üstünlük təşkil etməyə başlayıb, bir sözlə, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşları qoyulub.

Səlahiyyətli nümayəndə 1982-ci ildə Ümummilli Liderin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilməsini və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunmasını Azərbaycan tarixində mühüm tarixi hadisə kimi dəyərləndirib. Vurğulayıb ki, imperiya idarəçiliyində ən yüksək pilləyə yüksələn yeganə azərbaycanlı kimi Ulu Öndər o illərdə də Azərbaycana diqqət və qayğısını əsirgəməyib, respublikamızın ictimai-mədəni həyatı ilə daim maraqlanaraq Azərbaycanın gələcək müstəqilliyi üçün ciddi əsaslar yaradıb.

Fuad Nəcəfli Ümummilli Liderin dövlətçilik fəaliyyətindən danışarkən böyük ömrün 1990-1993-cü illəri əhatə edən Naxçıvan mərhələsindən xüsusi bəhs edib. Qeyd edib ki, həmin illərdə dahi şəxsiyyət, bütövlükdə, müstəqil dövlətçiliyimizin əsaslarını işləyib hazırlayıb. Ulu Öndərin hakimiyyətə qayıtdığı 1993-cü ilin 15 iyun günü Azərbaycan xalqının tarixinə “Milli Qurtuluş Günü” kimi yazılıb. Bu dövrdən etibarən Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə yeni inkişaf strategiyasının təməlini qoyub. İqtisadiyyatın bütün sahələrində aparılan düzgün və səmərəli siyasət nəticəsində ölkədə ümumi daxili məhsul 1996-2002-ci illərdə 71 faiz artıb, “Əsrin müqaviləsi”nin praktiki cəhətdən reallaşması və bir çox sahələrə sərmayələrin yönəldilməsi sənayedə dirçəlişin təməlini qoyub. 1993-cü ildən başlayaraq kənd təsərrüfatı sahəsi yenidən dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilib. 1993-2002-ci illərdə istehsal və qeyri-istehsal sahələrinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edən 70-dən çox yeni obyekt inşa edilib, bütün maliyyə mənbələri hesabına ölkə iqtisadiyyatının və sosial sahələrin inkişafına 8,2 milyard manat investisiya yönəldilib, 2002-ci ildə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 1993-cü ilə nisbətən 36,3 dəfə, dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85,1 dəfə artıb, 74 mindən artıq yeni mənzil, 82 yeni ümumtəhsil məktəbi istifadəyə verilib.

“Bu gün Azərbaycan dünyada sürətlə və dinamik inkişaf edən dövlətdir”, – deyən Fuad Nəcəfli vurğulayıb ki, ölkənin iqtisadi qüdrətinin artması onun müstəqil siyasət yeritməsinə, əhalinin rifah halının ildən-ilə yüksəlməsinə imkan yaradır. İkinci Qarabağ müharibəsində qazanılmış tarixi Qələbə güclü dövlət-güclü ordu konsepsiyasının və xalq-Lider birliyinin təntənəsidir. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycanı böyük Qələbəyə və uğurlara çatdırmaqla ata vəsiyyətini layiqincə yerinə yetirib. Bu gün dünya gücləri Azərbaycanın yaratdığı yeni reallıqlarla hesablaşırlar. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq nəhəng transmilli nəqliyyat və enerji layihələri həyata keçirən Azərbaycanın bu təşəbbüsləri dünyanın aparıcı dövlətləri tərəfindən dəstəklənir, ölkəmizə iqtisadi-siyasi dividentlər qazandırır. Azad olunmuş torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işləri heç kəsdən yardım alınmadan Azərbaycanın öz imkanları hesabına sürətlə davam etdirilir, Böyük Qayıdış Proqramı çərçivəsində uğurlu addımlar atılır.

Səlahiyyətli nümayəndə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən işləri də xüsusi qeyd edib. Vurğulayıb ki, Ümummilli Liderin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədilə mühüm addımlar atan Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu nəinki Azərbaycanda, eyni zamanda regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilib. Mehriban xanım Əliyevanın sivilizasiyalararası dialoqa verdiyi töhfələr, Azərbaycanın siyasi, ictimai, sosial və mədəni həyatında fəal iştirakı, Azərbaycan mədəniyyətinin dünyada təbliği sahəsində əvəzsiz xidmətləri, həmçinin ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyi, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyi ona böyük xalq sevgisi qazandırıb.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli çıxışının sonunda Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə dərin hörmət və ehtiramla yad edib və fəxrlə vurğulayıb ki, müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir.

Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri Arif Rəhimzadə çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq dövrü respublikamızın inkişaf və tərəqqi illəri kimi səciyyələndirib. Qeyd edib ki, Ulu Öndərin 1969-cu ildə hakimiyyətə gəlişi ərəfəsində respublikamız çox ciddi problemlərlə üz-üzə idi. Amma dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanda bütün sahələr inkişaf etməyə başladı. Bir sıra mühüm qərarlar qəbul edildi və nəticədə, Azərbaycan keçmiş İttifaq respublikaları arasında ön sıralara çıxdı.

YAP Veteranlar Şurasının sədri qeyd edib ki, Ulu Öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı ilə, ilk növbədə, Azərbaycan parçalanmaqdan, bir dövlət kimi məhv olmaqdan xilas edildi. Heydər Əliyev dühası, Ümummilli Liderin çox böyük nüfuzu və insanları öz arxasınca aparmaq bacarığı sayəsində Azərbaycanın başının üstünü almış təhlükələr aradan qaldırıldı, ölkəmiz inkişaf yoluna qədəm qoydu.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışında diqqətə çatdırıb ki, Ulu Öndərin respublikamızın problemlərini dərindən bilməsi, onların həlli yollarını müəyyənləşdirməsi, ən başlıcası isə bütün xalqı vahid məqsəd ətrafında birləşdirməsi gələcək uğurlar və inkişaf üçün əsas oldu. Heydər Əliyev hakimiyyətinin birinci mərhələsində Azərbaycanı geridə qalmış aqrar ölkədən inkişaf etmiş aqrar-sənaye ölkəsinə çevirdi.

İsmayıl Hacıyev vurğulayıb ki, milli ideologiyanın, dəyərlər sisteminin yaradıcısı olan Heydər Əliyev bu sistemin qorunub saxlanılmasına, onun gələcək nəsillərə çatdırılmasına da öz töhfəsini verib. Ulu Öndər bütün dünya azərbaycanlılarını vahid ideya ətrafında sıx birləşdirməyi bacarıb. Çünki onun siyasətinin fəlsəfi kökündə milli təfəkkür, milli şüur, milli düşüncə, Azərbaycançılıq məfkurəsi dayanırdı.

Konfrans Naxçıvan Televiziyasının təqdim etdiyi “14 iyul Zirvəsi” adlı sənədli filmin nümayişi ilə başa çatıb. Filmdə Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illərdə milli dövlətçiliyimizin yaradılması və gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən bəhs edən arxiv materialları, çıxışları təqdim olunub.



## Sosial-iqtisadi inkişaf proqramı çərçivəsində Naxçıvanda ikinci özəl tibb müəssisəsi fəaliyyətə başlayıb



İyulun 12-də Naxçıvan şəhərində ölkənin səhiyyə sahəsində özünəməxsus yeri olan “Referans” Klinik Laboratoriya və Poliklinika Mərkəzinin filialı istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli mərkəzin fəaliyyəti ilə tanış olub.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Samiq Sadıxov və “Referans Medical Group”un təsisçisi və baş direktoru Hansıyar Babayev məlumat veriblər ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası çərçivəsində səhiyyənin inkişafı da diqqətdə saxlanılır. Sözügedən Dövlət Proqramında əhalinin keyfiyyətli tibb xidmətlərinə çıxışının yaxşılaşdırılması məqsədilə özəl tibb müəssisələrinin fəaliyyətə başlaması qarşıya məqsəd qoyulub. “Referans” Tibb Mərkəzi Naxçıvanda Dövlət Proqramının icrasına uyğun olaraq istifadəyə verilən ikinci özəl tibb müəssisəsidir.

Bildirilib ki, “Referans” 2016-cı ildən etibarən laborator xidmətlər, 2018-ci ildən isə poliklinik xidmətlər üzrə fəaliyyət göstərir. Naxçıvan Tibb Mərkəzi “Referans”ın, ümumilikdə, 29-cu filialıdır. Ölkənin və regionun ən yaxşı tibb mərkəzləri şəbəkəsinə çevrilən “Referans”ın filiallarında beynəlxalq standartlara cavab verən səhiyyə xidmətləri göstərilir. “Referans” Naxçıvan Tibb Mərkəzi də ən müasir avadanlıqlarla təchiz edilib, pasiyentlərin rahatlığı üçün beynəlxalq standartlara cavab verən tibbi protokollara uyğun qurulub. Burada peşəkar həkim komandası tərəfindən regionda mövcud olmayan bir sıra tibbi xidmətlər, o cümlədən 7 mindən çox laborator müayinə, maqnit-rezonans tomoqrafiya, terapiya, kardiologiya, qastroenterologiya, endokrinologiya, nevropatologiya, dermatologiya, mama-ginekologiya və pediatriya sahələri üzrə tibbi xidmətlər göstəriləcək.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli “Referans” Naxçıvan Tibb Mərkəzinin açılışı münasibətilə kollektivi təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.

## Naxçıvan Dövlət Universitetinin tələbələri “O olmasın, bu olsun” əsərini səhnələşdirib





***İyulun 8-də Naxçıvan Dövlət Milli Dram Teatrında Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələri Üzeyir Hacıbəyli yaradıcılığının ən parlaq nümunələrindən sayılan “O olmasın, bu olsun” musiqili komediyasını nümayiş etdiriblər.***

Naxçıvan Muxtar Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə təqdim olunan tamaşanı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət rəsmiləri, eləcə də ictimaiyyət nümayəndələri izləyiblər.

Tamaşadan əvvəl Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək bildirib ki, Naxçıvan Dövlət Universiteti muxtar respublikanın 100 illiyinə töhfələr verməkdə davam edir və nümayiş etdirilən musiqili komediya da universitet kollektivinin bu yubileyə hədiyyəsidir. Rektor vurğulayıb ki, bu həm də istedadlı tələbələrin Naxçıvan ictimaiyyəti qarşısında hesabatıdır.

Naxçıvan Dövlət Universitetinin Konservatoriyası və Musiqi Kollecinin müəllim və tələbələri tərəfindən səhnələşdirilən tamaşanın bədii rəhbəri və quruluşçu rejissoru Əməkdar artist Mübariz Əsgərov, dirijoru Xalq artisti, professor Çingiz Axundov, quruluşçu rəssamı Əməkdar rəssam Cavid İsmayılovdur.

Tamaşada, ümumilikdə, 42 müəllim və tələbə iştirak edib. Aktyorları universitetin kiçik tərkibli simfonik orkestri müşayiət edib.

Fuad Nəcəfli tamaşadan sonra aktyorlarla görüşüb, uğurlu səhnə həlli münasibətilə təbriklərini çatdırıb və onlarla xatirə fotosu çəkdirib.



## 14 iyul 1969-cu il: Xalqa bağışlanan ömür

Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı və Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin ilk dəfə siyasi hakimiyyətə gəlişinin 55-ci ildönümü münasibətilə “14 iyul 1969-cu il: Xalqa bağışlanan ömür” mövzusunda tədbir keçirilmişdir.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2017-ci il 3 may tarixli 66-V FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Şərq qapısı” qəzeti redaksiyasının Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2017-ci il 3 may tarixli 66-V FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Şərq qapısı” qəzeti redaksiyasının Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci bəndə “Şərq qapısı” qəzeti” sözlərindən sonra “Media haqqında” Azərbaycan Respublikası Qanununun 59.2-ci maddəsinə əsasən” sözləri əlavə edilsin və həmin bənddən “və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti” sözləri çıxarılsın.

2. Aşağıdakı məzmunda 1-1-ci və 1-2-ci bəndlər əlavə edilsin:

“1-1. “Şərq qapısı” qəzeti Naxçıvan Muxtar Respublikasının hüquqi aktlarının və rəsmi məlumatların dərc edildiyi dövri nəşrdir.

1-2. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri “Şərq qapısı” qəzeti redaksiyasının nizamnaməsini təsdiq edir, istehsal və yayım istiqamətlərini müəyyənləşdirir, onun maliyyə, təminat və təchizat məsələlərini həll edir.”.

3. 3-cü bəndə “Redaksiya” sözündən sonra “hüquqi şəxsdir,” sözləri əlavə edilsin.

4. 4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“4. Redaksiyanın saxlanma xərcləri fəaliyyətinin həyata keçirilməsindən əldə edilmiş gəlir və qanunvericiliklə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir. Redaksiya fəaliyyətinin nəticələrinə görə təsisçi qarşısında məsuliyyət daşıyır.”.

5. 5-ci bəndə “Təbriz küçəsi” sözlərindən sonra “14” rəqəmləri əlavə edilsin.

6. 7.6-cı bənddə “kütləvi informasiya vasitələri” sözləri “media subyektləri” sözləri ilə əvəz edilsin.

7. Aşağıdakı məzmunda 8.7-1-ci bənd əlavə edilsin:

“8.7-1. “Reklam haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada reklamverici (reklam istehsalçısı, reklam agenti) ilə bağlanılan müqavilə əsasında reklam yerləşdirmək və gəlir əldə etmək;”.

8. 9-cu bəndin üçüncü cümləsində və 14.2-ci bənddə “müavinləri” sözü “müavini” sözü ilə əvəz edilsin.

9. 12-ci bənddə “Respublikasının Ali Məclisi” sözləri “Respublikası Ali Məclisinin sədri” sözləri ilə, “iki” sözü “bir” sözü ilə əvəz edilsin.

10. 13-cü bənddə “müavinləri onlara” sözləri “müavini ona” sözləri ilə, “daşıyırlar” sözü “daşıyır” sözü ilə əvəz edilsin.

11. Aşağıdakı məzmunda VI, VII və VIII hissələr əlavə olunsun:

**“VI. Redaksiyada uçot, hesabat və nəzarət**

15.1. Redaksiya mühasibat və statistik uçotu “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aparır.

15.2. Redaksiya illik maliyyə hesabatlarını hər maliyyə ili bitdikdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim edir.

**VII. Redaksiyanın strukturu, ştat vahidləri və işçilərin əməkhaqları**

Redaksiyanın strukturunu, ştat vahidlərinin ümumi sayını və işçilərin əməkhaqlarını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə razılaşdırmaqla Baş redaktor müəyyən edir.

**VIII. Redaksiyanın ləğvi və yenidən təşkili**

Redaksiyanın ləğvi və yenidən təşkili Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən həyata keçirilir.”.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 10 iyul 2024-cü il*

## “Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxsin yaradılması barədə

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. “Naxçıvan Təlim Mərkəzi” publik hüquqi şəxs (bundan sonra – Mərkəz) yaradılsın.

2. Müəyyən edilsin ki, Mərkəz muxtar respublikanın dövlət orqanlarında (qurumlarında) çalışan işçilərin peşəkar inkişafının dəstəklənməsi, gənclərin şəxsi və peşəkar inkişafı üçün müxtəlif mövzularda kursların təşkili və təlimlərin keçirilməsi, eyni zamanda peşə qabiliyyətlərinin yüksəldilməsi məqsədilə fəaliyyət göstərən publik hüquqi şəxsdir.

3. Mərkəzdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

3.1.1. Mərkəzin yenidən təşkili və ləğv edilməsi;

3.2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə:

3.2.1. Mərkəzin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

3.2.2. idarəetmə orqanlarının yaradılması;

3.2.3. idarəetmə orqanları rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.3. Mərkəzə:

3.3.1. bu Fərmanın 3.1-ci və 3.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

4.1. Mərkəzin nizamnaməsini təsdiq etsin, habelə nizamnamə fondunun formalaşdırılmasını təmin etsin və bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

4.2. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim etsin;

4.3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Mərkəz:

5.1. strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

5.2. dövlət qeydiyyatına alınması üçün nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

5.3. Bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini**
**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 11 iyul 2024-cü il*

# AZƏRBAYCAN TARİXİNİN ŞƏRƏF GÜNÜ









(əvvəli 1-ci səhifədə)

Ulu Öndərimiz Azərbaycan xalqının şüurunda məhz bu inqilabi dəyişikliyi yaratmışdı. Bu baxımdan inamla demək olar ki, görkəmli dövlət xadiminin ölkəmizə rəhbərliyinin birinci dövrü, eyni zamanda milli özünüdərkin oyanmasının, soykökə qayıdışın başlanğıc dövrüdür. Onun bütün fəaliyyəti xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Müstəqilliyi əldə etmək üçün isə möhkəm təməl, iqtisadi inkişaf lazım idi. Buna görə də 1969-cu ildən başlayaraq Azərbaycan iqtisadiyyatının gücləndirilməsi Ulu Öndərimizin siyasi xəttinin əsasını təşkil edirdi. Belə bir vaxtda dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanın düşdüyü vəziyyətdən xilası, inkişaf və çiçəklənmə tarixinin başlanğıcı dövrü oldu. Həmin dövrü Heydər Əliyev belə xarakterizə edirdi: ***“Respublikada olan vəziyyət Moskvaya məlum idi və 1969-cu ilin əvvəllərindən etibarən rəhbərliyi əvəz edəcək şəxsin axtarışında idilər. Bizim Andropovla çox yaxşı münasibətlərimiz vardı. Həmin dövrdə Andropov SSRİ DTK-nın sədri idi. O mənə daim hörmətlə yanaşır, etibar edirdi. Tez-tez Bakıya telefon açır, mənimlə danışırdı, bu və ya başqa şəxslə maraqlanır, onun MK-nın birinci katibi vəzifəsinə nə qədər layiqli olduğunu araşdırırdı. Bir dəfə məni Moskvaya, Andropovun yanına dəvət etdilər. Azərbaycandakı siyasi, iqtisadi vəziyyətdən danışdıq. Və Andropov xəbər verdi ki, sabah səni Sov.İKP MK-ya dəvət edəcəklər və mənim namizədliyimi Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə irəli sürəcəklər. Mən təəccübləndim ki, niyə bu barədə mənə heç nə deməyiblər, mən təhlükəsizlik orqanlarında qalıb işləmək istəyirəm. O isə mənə razılıq verməyi tövsiyə etdi. Fikrini belə əsaslandırdı ki, partiya işində təmiz adamlar lazımdır. Bir neçə gün keçdi. Məni Brejnevin qəbuluna dəvət etdilər və Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilmək üçün zəmanət verdilər”.***

Buna görə də 1969-cu ilin 14 iyul günü, sadəcə olaraq, respublika rəhbərinin seçim günü yox, həm də milli liderin gəlişi ilə Azərbaycan tarixinin şərəf günüdür. Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti ilə qısa vaxt ərzində ölkəmizin ictimai-siyasi və iqtisadi həyatında böyük dönüş baş verdi. SSRİ-də ən geridə qalan respublikalardan biri olan Azərbaycan özünün inkişaf yoluna qədəm qoydu, qısa müddətdə böyük sənaye mərkəzinə çevrildi. Elə bu böyük insana görə də xalqımıza, Azərbaycana olan münasibət də kökündən dəyişdi. İqtisadiyyatda, cəmiyyət həyatının bütün sahələrində böyük uğurlar əldə olundu, Azərbaycan müttəfiq respublikalar içərisində ön sıralarda qərar tutdu. Xalqı ilə yanaşı, təbii ki, onun lideri Heydər Əliyevin şöhrəti də hər yerə yayıldı. Görkəmli dövlət xadimi Heydər Əliyevin həmin dövrdə Azərbaycan naminə həyata keçirdiyi müdrik siyasətə diqqətçəkən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***“SSRİ dönəmində Azərbaycanın iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı”.***

Ulu Öndərimizin həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət nəticəsində 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilmişdir. Müstəqilliyə qovuşmaq məqsədilə reallaşdırılan həmin tədbirlər nəticəsində 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 10 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilmişdi. Bu, Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin göstəricisi idi. Azərbaycanda gedən prosesləri analiz edən istənilən siyasi ekspert qeyd edir ki, həmin illərdə ölkə birmənalı şəkildə bütün istiqamətləri üzrə müstəqilliyə hazırlanırdı. Sonralar həmin dövrdə həyata keçirdiyi tədbirlərdən danışan Ulu Öndər Heydər Əliyev deyirdi: ***“Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur”.***

Faktdır ki, 1969-cuilədək bir çox mühüm infrastruktur layihələri bilərəkdən Azərbaycanda yaradılmırdı. O zaman SSRİ-də 15 respublika var idi. Təbii ki, hər bir respublikanın rəhbəri də yeni sahənin öz ölkəsində açılmasını, zavodun və ya fabrikin öz ərazisində tikilməsini istəyirdi. Amma həmişə Heydər Əliyev inadkarlığı, uzaqgörənliyi həmin məsələlərin respublikamızın xeyrinə həll olunmasını reallaşdırırdı. Unutmayaq ki, bu işlər heç də asanlıqla başa gəlmirdi. Bakı Kondisionerləri Zavodunun hansı respublikada tikilməsi ilə bağlı mübahisələrdə Heydər Əliyev şəxsiyyəti böyük rol oynadı. Belə misalların sayı isə yüzlərlədir. Bütün bunlar barəsində Ulu Öndər Heydər Əliyev belə deyirdi: ***“O dövrdə kondisioner zavodunu Ukraynada tikmək planlaşdırılırdı. İttifaq səviyyəsində məsələ həll olunmuş, layihə də hazırlanmışdı. Amma biz mübarizə apardıq, bu zavodun Azərbaycanda tikilməsinə, həm də yapon mütəxəssisləri ilə birgə tikilməsinə nail olduq. Bu cür böyük işlər asan başa gəlmirdi”.***

Hazırda Azərbaycanın bütün əhəmiyyətli istehsal sahələri, səhiyyə, elm və mədəniyyət mərkəzləri Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə gördüyü işləri saymaqla qurtaran deyil. Bakıda, Naxçıvanda, Gəncədə, Sumqayıtda, Mingəçevirdə yeni-yeni yaşayış massivlərinin yaranması, neçə-neçə ali təhsil müəssisələrinin, hərbi məktəblərin açılışı, neft sənayesinin dirçəldilməsi, kənd təsərrüfatının inkişafı – bütün bunlar dahi insan Heydər Əliyevin bizlər üçün, millət üçün yaratdığı əsərlərdir. Görkəmli dövlət xadiminin sözləri ilə desək: ***“Fəxr edirəm ki, Azərbaycanın hər yerində mənim əsərlərim var. Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərlərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, yaşayış evləri, universitet, məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir”.***

Ulu Öndər Heydər Əliyevin Moskvaya, məsul vəzifəyə gedişi də tarixi hadisə idi. İlk dəfə idi ki, milliyyəti azərbaycanlı olan şəxs SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri seçilirdi. O böyük və məsul vəzifədə də doğma Vətənini unutmayan, onun inkişafına çalışan, hər bir uğuruna sevinən Heydər Əliyevin qəlbi hər zaman Azərbaycanla döyünürdü. Sonralar özü bu haqda deyirdi: ***“Mən harada olsam da, necə yaşasam da, daim Azərbaycanı düşünürəm. İstər Moskvada yüksək səviyyədə yaşayım, istərsə də Naxçıvanda kasıb bir daxmada”.***

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi şərəfli xilaskarlıq və quruculuq missiyası ilə zəngindir. Bu missiyanın öz başlanğıcını götürdüyü yer isə Azərbaycanın Naxçıvan Muxtar Respublikası idi. Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır.

Naxçıvan Muxtar Respublikası da ötən əsrin 70-ci illərində görülən məqsədyönlü işlər nəticəsində sürətlə inkişaf etməyə başlamışdır. Belə ki, 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə qalırdı və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında Ulu Öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin “Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında” 1974-cü il 8 yanvar tarixli Qərarının mühüm rolu olmuşdur. Aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə artmışdır.

**Prezident İlham ƏLİYEV:**

**“Heydər Əliyev böyük azərbaycanlıdır, böyük tarixi şəxsiyyətdir, müstəqil Azərbaycanın qurucusudur. O, öz ömrünü Azərbaycan xalqına həsr etmişdir və bütün dövrlərdə Azərbaycana sədaqətlə xidmət edirdi.”**

Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır. Ulu Öndərin o vaxt Naxçıvanın elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün atdığı addımlar muxtar respublikanın gələcək taleyində mühüm rol oynamışdır. 1990-cı illərin əvvəllərində Naxçıvan Ermənistan tərəfindən blokadaya alınarkən muxtar respublika əhalisi məhz həmin enerji mənbələri hesabına həyat ritmini qoruyub saxlaya bilmişdir.

1990-cı il iyulun 20-də Ümummilli Liderimiz Bakıya gəldi. İki gün sonra – iyulun 22-də isə doğma Naxçıvana qayıtdı, bu qədim diyardan Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etdi. Ulu Öndər 1990-1993-cü illərdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən xilası və böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər gördü. Dahi şəxsiyyətin Naxçıvandan başladığı müstəqillik yolu Azərbaycanın qurtuluş mübarizəsinə çevrildi.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası çox böyük uzaqgörənliklə yekdillik nümunəsi göstərərək görkəmli dövlət xadimi Heydər Əliyevi Ali Məclisin Sədri seçdi. Naxçıvanlıların bu müdrik seçimi muxtar respublikanı real işğaldan və qaçqın həyatı yaşamaq təhlükəsindən xilas etdi, müstəqil dövlətçilik yolunda mühüm və əhəmiyyətli addımlar atıldı. Prezident cənab İlham Əliyevin dediyi kimi: ***“Naxçıvan dövrü çox yaddaqalan dövrdür. Mən o dövrü çox yaxşı xatırlayıram. Mən dəfələrlə Naxçıvana atamın yanına getmişəm, onunla bərabər olmuşam. Çox ağır vəziyyətdə Naxçıvanın qorunması, Naxçıvanın yaşaması üçün çox böyük işlər görülmüşdür. Müstəqilliyimiz üçün də çox böyük işlər görülmüşdür. Çünki uzun fasilədən – 1920-ci ildən sonra ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında rəsmi dövlət bayrağı kimi təsdiq olundu. Bu, müstəqilliyə gedən yolun başlanğıcı idi”.***

Rəhbərliyi dövründə Heydər Əliyev öz adını Azərbaycanla, Azərbaycan xalqı üçün gördüyü işlərlə də əbədi bağlamışdır. Buna görə də Ulu Öndərin adı Azərbaycanın tarixinə xilaskar kimi qızıl hərflərlə yazılmışdır. 1993-cü ildə yenidən respublika rəhbərliyinə qayıdan Ümummilli Lider Heydər Əliyev ölkə qarşısında duran çox çətin və mürəkkəb problemləri qısa zaman kəsiyində həll etdi. Bu elə bir vaxt idi ki, Azərbaycanın müstəqilliyi və varlığı sual altında idi. Yenə də O böyük şəxsiyyət – Heydər Əliyev xalqının köməyinə gəldi, Azərbaycanı, xalqımızı labüd olan böyük fəlakətlərdən, bəlalardan hifz etdi və xalqının əsl xilaskarı oldu. Bütün ömrünü xalqına həsr etmiş dahi insan həyatının mənasını belə qiymətləndirirdi: ***“Mən həyatımı insanlara səadət gətirməyə həsr etmişəm. Mən həyatımı millətimin, xalqımın yaxşılaşmasına həsr etmişəm. Həyatımı Azərbaycanda qurub-yaratmağa həsr etmişəm”.*** Ömrünün son gününədək sözünün sahibi oldu.

Naxçıvanda dövlət quruculuğu prosesinin getdiyi həmin dövrdə ölkəmiz hakimiyyətsizlik, vətəndaş qarşıdurması, dövlət müstəqilliyini itirmək, işğal və parçalanmaq təhlükəsi ilə üz-üzə idi. Azərbaycana “rəhbərlik edənlər” ölkənin və xalqın gələcəyini deyil, öz şəxsi mənafelərini güdürdülər. Belə bir dövrdə xalqımız ümid yeri kimi Naxçıvana – Ümummilli Liderimiz Heydər Əliyevə üz tutdu, onu təkidlə siyasi hakimiyyətə dəvət etdi. 1993-cü il iyunun 15-də Ulu Öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin əsasını qoydu, müstəqilliyimiz qorunub saxlandı, möhkəm ictimai-siyasi sabitlik yaradıldı, Azərbaycan yenidən əsası 1969-cu ildən başlanan inkişaf yoluna qayıtdı.

Heydər Əliyev yolu Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını da hərtərəfli inkişaf yoluna çıxarıb. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təsisindən sonra dövlət idarəçiliyində, vətəndaşla dövlət orqanları arasında qarşılıqlı fəaliyyətdə əhəmiyyətli dərəcədə irəliləyişlər əldə olunub, büdcə vəsaitlərindən səmərəli istifadə, bütün sahələrdə, proseslərdə şəffaflığın təmini istiqamətində tədbirlər həyata keçirilib. Ölkə başçısının diqqət və qayğısı ilə muxtar respublikanın sosial-iqtisadi inkişafı fonunda yeniləşən şəhər və kəndlərimiz, müasir infrastruktur, ən əsası sabitlik və təhlükəsizlik Naxçıvanı Azərbaycanın ən gözəl, cazibədar diyarına çevirib. Prezident cənab İlham Əliyevin imzaladığı Sərəncama əsasən təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası da muxtar respublikanın iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından, tranzit imkanlarından səmərəli istifadə olunmaqla mövcud çatışmazlıqların aradan qaldırılmasına, iqtisadi inkişafın sürətləndirilməsinə, əhalinin məşğulluğunun artırılmasına, maddi rifahın yüksəlməsinə təkan verəcək.

Bu gün muxtariyyətinin yüzillik ali təntənəsini yaşayan Naxçıvanın muxtar respublika statusu bu bölgənin 100 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malik olmuşdur. Bu illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir. Ölkə Prezidentinin dediyi kimi: ***“Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir”.***

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvan Muxtar Respublikası ilə bağlı sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həllivacib olan digər məsələlərin həyata keçirilməsi muxtar respublikanın hərtərəfli inkişafı üçün zəmin yaratmış və təmin etmişdir.

Müxtəlif dövrlərdə Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının ildönümləri dövlət səviyyəsində qeyd olunmuş, 1949-cu ildə muxtar respublikanın 25, 1964-cü ildə 40, 1974-cü ildə 50, 1984-cü ildə 60 illik yubileyləri keçirilmişdir. Keçirilən yubileylərin ikisi – 50 və 75 illik yubileylər Ulu Öndərin qərarı və iştirakı ilə keçirilmişdir. “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli Sərəncamında da deyildiyi kimi: *“Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur”.*

Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini bu məktəbin layiqli davamçısı olan Prezident cənab İlham Əliyevə əmanət etmişdir. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi altında yeni nailiyyətlər qazanır. Yeni əsrin yeni lideri olan Prezident cənab İlham Əliyev öz praqmatik və müdrik siyasəti ilə Azərbaycanı daim irəli aparır. Xalqımız ölkə Prezidentinin ətrafında “dəmir yumruq” kimi birləşib. Azərbaycan irəliyə doğru inamla addımlayır. 44 günlük İkinci Qarabağ müharibəsində qazanılmış möhtəşəm Zəfər bunun ən yeni sübutudur. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə günbəgün qüdrətlənən Azərbaycan, onun rəşadətli Ordusu düşməni torpaqlarımızdan qovdu, üçrəngli bayrağımızı işğal altında olan bütün torpaqlarımızda dalğalandırdı, ərazi bütövlüyümüzü bərpa etdi, Azərbaycan əsgəri öz qanı, canı bahasına 30 illik işğala son qoydu. Azərbaycan Prezidenti İlham Əliyev bu Zəfərin memarı, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Qalib Lider kimi adını əbədi olaraq tarixə yazdı.

Vətən müharibəsində qazanılan Zəfər Heydər Əliyev siyasətinin nəticəsidir desək, yanılmarıq. Çünki müharibənin başa çatdığı gün müqəddəs ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss etdiyini söyləyən dövlət başçısı cənab İlham Əliyevin bu fikirləri bir daha təsdiq edir ki, bu Zəfər Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi müasir inkişaf konsepsiyasının ən böyük uğurudur. Ulu Öndərin vaxtilə dediyi: ***“Biz Qarabağ məsələsini həll edəcəyik. Vaxt lazımdır. Heç kim torpaqlarını Azərbaycandan ala bilməz. İşğal olunmuş torpaqlarımız mütləq geri qaytarılacaqdır. Nəyin bahasına olursa-olsun”*** fikirlərini reallığa çevirən cənab İlham Əliyev Ümummilli Liderimizin əbədiyaşar ruhunu da şad etdi.

Dahi Öndər Heydər Əliyev Yeni Azərbaycanın bugünkü simasını və gələcək inkişaf perspektivlərini müəyyənləşdirib. Onun Azərbaycan naminə gördüyü işlər bu gün ölkəmizin milli sərhədlərini aşaraq, bütövlükdə, regionun və dünya sivilizasiyasının da tərəqqisinə xidmət edir. Xalqımızın böyük oğlu dünyanın ən nüfuzlu mükafatlarına, fəxri ad və titullarına layiq görülüb, lakin onun öz sağlığında layiq görüldüyü ən yüksək mükafat isə Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmasıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri vardır. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır”.***

***P.S.*** *Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 55 illiyinə həsr etdiyimiz xüsusi nömrəmizdə Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsindən əldə etdiyimiz 1969-1982-ci illərdə Ulu Öndərin Naxçıvana səfərləri zamanı çəkilmiş fotoşəkillər inanırıq ki, oxucularımızın da marağına səbəb olacaq.*

**Məhəbbət MİRZƏYEVA**









# Sən 100 yaşlı muxtar respublikanın insanlarının qəlbindəsən, Elcan!



Qayğısız keçən uşaqlıq günlərini xatırlayanda gözlərim yollara dikilir. Elcanlı çağlarım keçir xəyalımdan. Bəzən düşünürəm ki, qardaşım ölə bilməzdi; onu uşaqlıqdan hamımız qorxmaz, cəsur bir oğlan kimi tanıyırdıq. Məhəllədə də, məktəbdə də eləcə... Hamı ondan razılıq edirdi: "Gələcəyi parlaqdır", – deyirdilər... Gələcəyi şəhidlik oldu... Dünən onunla böyük qardaşım kimi fəxr edirdimsə, bu gün onunla şəhid qardaşım kimi qürurlanıram. Bəzən onu və məni tanıyanlar yanımdan keçəndə bir-birlərinə "Şəhid Elcanın qardaşıdır", – deyəndə isə...

Bu düşüncələr yadıma müqəddəs "Qurani-Kərim"in "Əli İmran" surəsinin 170-ci ayəsini salır: "Onlar Allahın öz nemətindən onlara bəxş etdiyi nemətə (şəhidlik rütbəsinə) sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış (şəhidlik zirvəsinə hələ nail olmamış) kəslərin (axirətdə) heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər".

Bu gün ruhları başımız üstdə gəzən, hələ ayaq izləri yaşayan torpaqlarımız öz azadlığına qovuşub. Ərazi bütövlüyümüz təmin olunub. Qarabağ torpağı əsrimizin, 100 ilimizin tikinti meydançasına çevrilib. Qəvi düşmənə gözdağı olan o tikintilərdə çalışanlar müqəddəs bir vəzifəni yerinə yetirmək üçün canla-başla çalışır, bununla həm də şəhidlər qarşısındakı borcumuzu verirlər.

...İstər-istəməz son iki əsrdə mənfur ermənilərin xalqımıza qarşı törətdiklərinin kökündə nələrin dayandığını fikirləşəndə tarix də dil açıb danışır.

1924-cü ilin 9 fevralında qədim Naxçıvanımızın müqəddəratını həll edən bir qərara imza atıldı. Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası elan edildi. Bununla da mənfur qonşularımız ermənilərin Naxçıvanla bağlı olan iddialarına son qoyuldu.

Artıq doğma Naxçıvanımızda dinc, quruculuq və abadlaşma dövrü başlamışdı. Muxtar respublikamızın mərd, qəhrəman zəhmətkeş insanları diyarımızın firavanlığı üçün səylərini əsirgəmirdilər. Bunun nəticəsi idi ki, qədim diyarımızda kənd təsərrüfatı gündən-günə sürətlə inkişaf edir, yeni sənaye müəssisələri yaradılır, fabrik-zavodlar işə salınırdı. Orta məktəblər yaradılır, onlar üçün məktəb binaları tikilirdi. Erməni isə yenə erməniliyində idi, öz məkrli erməni xislətlərindən əl çəkməmişdi. 1990-cı ildə yenidən Qarabağa və Naxçıvana ərazi iddiaları qaldıran erməni separatçıları silahlı münaqişə yaradaraq havadarlarına arxalanıb torpaqlarımıza hücum etməyə başladılar. Lakin onlar igid, qəhrəman naxçıvanlıların sərt müqaviməti ilə qarşılaşaraq öz layiqli cavablarını aldılar. Bu ölüm-dirim savaşında yüzlərlə Vətən övladı şəhidliyə ucaldı, öz el-obasına qazi kimi qayıtdı, amma bir qarış torpağımızı belə düşmənə güzəştə getmədi. Nəhayət, 2020-ci ilin 27 sentyabrında başlayan II Qarabağ müharibəsi illərdən bəri yığılıb qalan problemlərə son qoymaq üçün bir dönüş nöqtəsi oldu.

Minlərlə qəhrəman, igid Azərbaycan oğulları Ali Baş Komandanımız cənab İlham Əliyevin ətrafında sıx birləşərək cəmi 44 gündə Ermənistan ordusunu darmadağın edərək ona diz çökdürdü. Bu müharibədə Naxçıvanın mərd əsgər və zabitləri xüsusilə fərqləndilər, 300-dən artıq şəhid verərək Azərbaycanın zəfər salnaməsinə öz adını qızıl hərflərlə yazdılar. Sanki bununla ustad şairimiz Məmməd Araza səs verdilər:

*Bu gün gərək hər anımız "Vətən" desin!*
*Qılıncımız qalxanımız "Vətən" desin!*
*Ölənlərin əvəzinə qalanımız "Vətən" desin!*
*Qəlbimizin hər duyğusu, hər vurğusu*
*"Vətən" desin!*

Hələ qarşıda antiterror əməliyyatları var idi... 2023-cü il sentyabrın 19-da baş verən lokal xarakterli belə əməliyyatlarda da Naxçıvanın mərd oğulları öz sözünü deyərək düşmənə layiqli cavab vermək üçün səfərbər oldular. Bu döyüşlərdə də Naxçıvan qəhrəman qardaşım kapitan Elcan Balabəyli də daxil olmaqla, 10 şəhid verdi.

"Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli Sərəncamında oxuyuruq: *"Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir.*

*2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar".*

Artıq 4 ildir, müharibə başa çatıb. Ötən dövrdə isə Naxçıvan özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu qədim diyarın böyük dövlətçilik tarixi və bu tarixin, ümumilikdə, Azərbaycanın dövlətçilik tarixi olduğunu ən yüksək tribunalardan qürurla bəyan edən Ulu Öndərin Naxçıvan haqqındakı arzularını ata vəsiyyətin yerinə yetirməkdən qürur duyan cənab İlham Əliyev yüksək səviyyədə həyata keçirir.

Azərbaycan dövlətçiliyinin intişar tapdığı bu qədim yurd yeri ölkə Prezidenti cənab İlham Əliyevin davamlı qayğısı sayəsində son illərdə keçdiyi sürətli inkişaf yolu ilə, doğrudan da, dövlətçiliyin beşiyi olduğunu sübut edib. Bu gün müstəqillik kimi böyük bir nemətin daha da əbədi olması prinsipi naxçıvanlıların həyat idealına çevrilib. Bir ucu sərhəd bölgəsi Sədərək, bir ucu bağlar diyarı Ordubad, dağlar qoynunda füsunkarlıq rəmzi olan Şahbuz, digər bölgələrimiz bu gün inkişaf və tərəqqinin yeni müstəvisindədirlər. Rayon mərkəzləri ilə yanaşı, ucqar dağ kəndləri, sərhəd və ən kiçik yaşayış məntəqələri qəsəbə timsallıdırlar. Müasirləşən kəndlər bugünkü Naxçıvanın nail olduğu sosial-iqtisadi inkişafın göstəriciləridir.

Ancaq görülən bu işlərin blokada şəraitində yaşayan bir məmləkətdə reallaşması kiçik məsələ deyil. Və bütün bunların təməlində dövlət başçısı cənab İlham Əliyevin doğma yurduna bağlılığı, sevgi və məhəbbəti, insan amilinə, yurd amilinə böyük diqqət dayanır.

Naxçıvana hər gəlişində ölkə Prezidenti burada həyata keçirdiyi siyasətin bəhrələrini görür. Görür ki, hər gün, hər saat dəyişən Naxçıvan başdan-ayağa, sözün həqiqi mənasında, yeni quruculuq donundadır. Gündən-günə sayı artan məktəb, səhiyyə, mədəniyyət ocaqlarının yeni binaları, salınan yeni yaşayış massivləri, yeni emal və istehsal müəssisələrinin həyata vəsiqə alması, insanların məşğulluq probleminin həllinə nail olunması, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqi, beynəlxalq konfransların, idman yarışlarının keçirildiyi ünvan kimi Naxçıvanın bugünkü mənzərəsi Heydər Əliyev siyasətinin uğurlarıdır.

***"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün Ulu Öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü bax bu inkişafda təcəssüm etdirir"***, – deyən cənab İlham Əliyevin Naxçıvanda yeni idarəetmə institutu yaratması isə ölkə başçısının Şərqin qapısına növbəti qayğısının təzahürüdür. Digər bir qayğı isə ölkə başçısının 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"dır. Bu mühüm əhəmiyyətli dövlət sənədində yeni prioritetlər müəyyənləşdirilib...

Bu gün mən də sevinirəm ki, naxçıvanlılar qardaşım da daxil olmaqla heç bir şəhidimizi unutmur, onları minnətdarlıqla yad edir. Dövlətimiz şəhid ailələrinə qayğısını əsirgəmir, onların hər bir probleminə həssaslıqla yanaşır, evlə, avtomobillə, işlə təmin edir. Bu da qürurvericidir ki, artıq ümumtəhsil məktəblərinin bəzi siniflərinə şəhidlərin adları verilir. Düşünürəm ki, bu gün parta arxasında təhsil alan uşaqların vətənpərvərlik ruhunda böyüməsi üçün bu, çox uğurlu addımdır.

Təbii ki, tez-tez qardaşımın məzarını ziyarət edirəm. Qəlbim sevincdən qürurla dolur. Qədirbilən xalqımızın qardaşımın və digər şəhidlərimizin məzarları üstündə düzdükləri tər çiçəkləri görəndə bir daha onlarla fəxr edirəm.

Fəxr edirəm ki, bu gün 100 illik yubileyini qalib ölkənin qalib vətəndaşları kimi qeyd etdiyimiz Naxçıvanın 4 il bundan əvvəl qazandığımız Qələbədə iştirak edən və şəhidliyə ucalan oğulları içərisində şəhid kapitan Elcan Balabəyli də olub – mənim qardaşım Elcan! Əziz qardaşım! Rahat uyu! Qəbrin nurla dolsun!

Bu gün səni və sənin kimiləri yetirən Naxçıvanımız muxtariyyətinin 100 yaşını qeyd edir. Siz bu bayramda sevinənlərin qəlbindəsiniz.

100 yaşın mübarək, günü-gündən cavanlaşan muxtar respublikam!

**Elçin BALABƏYLİ**

*Məqalə "Şərq qapısı" qəzetinin elan etdiyi "Naxçıvan 100 ildə" yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.*

# "Naxçıvan Qaziləri" İctimai Birliyinin yaranması qazilərin birliyinin nümunəsidir



Vətən savaşı Azərbaycan xalqının yaddaşına silinməz izlər saldı. Cəmi 44 gündə işğaldan azad edilən torpaqların hər qarışı uğrunda canını və qanını fəda edən oğulların şücaəti ilə xalqımız qürur dolu günlər yaşadı. Azərbaycan əsgəri canından keçərək ölümə getdi, amma bir qarış torpağı düşmənə vermədi. Qarabağın azadlığı uğrunda itən əllər cənnət Şuşaya Vətəndən bərk yapışmağa güc, torpağın bir qarışına qurban gedən ayaqlar yeriməyə təpər, qaranlığa qərq olan gözlər isə illərdir, yollarda qalan gözlərə nur bəxş etdi. Vətənin hər tərəfindən gələn igid oğullar bir olub Vətəni bütövləşdirdi. Onların arasında Azərbaycanın qeyrət qalası Naxçıvanın da ər igidləri var idi. Onlar Naxçıvandan Qarabağa üz tutub başımızı uca etdilər. Kimi şəhidlik zirvəsinə ucalıb bayrağa sarılıb gəldi, kimisi də sağlamlığını torpağa qurban verib qayıtdı. Onlar Vətən savaşında bir olduqları kimi, qələbədən sonra da birlikdə olub "Birliyimiz əbədidir", – deyərək "Naxçıvan Qaziləri" İctimai Birliyini yaradıb öz müqəddəs missiyalarını davam etdirdilər. 2023-cü ilin aprel ayından fəaliyyətə başlayan "Naxçıvan Qaziləri" İctimai Birliyi ana Vətənimiz Azərbaycanın ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşmüş və yaralanmış hərbçiləri, şəhid ailələrini, müharibə veteranlarını birləşdirir. Məqsəd qazilərə, şəhid ailələrinə, müharibə veteranlarına qanunla şamil olunan güzəşt və imtiyazlardan istifadədə kömək etməkdən ibarətdir.

Naxçıvan qaziləri bir ildir ki, bir yumruq kimi birləşib şəhidlərin xatirəsini də yaşadırlar. Sağlamlığını Vətənə fəda edən bu oğullar birliyin ofisində "Şəhidlər" guşəsi yaradıblar. Həmin guşədə qəhrəman şəhidlərimizin fotoları, şəxsi əşyaları və onlar haqqında yazılan kitablar yer alır. Ofisə qədəm qoyan hər kəs igid Vətən oğullarının qəhrəmanlıqla dolu olan həyatlarından bəhs edən guşə ilə tanış olur, onlarla qürur duyur. "Naxçıvan Qaziləri" İctimai Birliyinin ofisinin açılması bu sahədə fəaliyyətin daha səmərəli təşkilini təmin ediblər. İctimai birliklə sıx əməkdaşlıq müvafiq dövlət qurumlarının bu sahədəki fəaliyyətini daha da gücləndirir. Naxçıvan qaziləri ötən bir il ərzində bir çox mühüm tədbirlər keçirmişdir. Birliyə Vətən savaşında Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə sağlamlığını itirən Cehun Bayramov rəhbərlik edir. Sədr müavini Əli Əlisoy düşmənin 30 il "keçilməz" sədd adlandırdığı ohanyan xəttinin yarılmasında şücaət göstərmişdir. Ehtiyatda olan baş leytenant Əli Əlisoy təhsilini Naxçıvan Dövlət Universitetinin Hüquq və beynəlxalq münasibətlər fakültəsinin Hüquqşünaslıq ixtisasında davam etdirir. Qazilərə hüquqi dəstək göstərir.

Birliyin 135 nəfər qazi üzvü ilə birlikdə bütün tədbirlərdə fəal iştirak edən, Naxçıvan Muxtar Respublikasının təhsil ocaqlarının tələbələrindən olan 75 nəfərdən ibarət könüllülər dəstəsi də formalaşıb. Keçirilən bütün tədbirlərdə gənclər fəal iştirak edirlər. İndiyədək birliyin təşkilatçılığı ilə "Şəhid əmanəti" adlı rəsm sərgisi, "Qəhrəman Muxtar Qasımlı" sənədli filminin təqdimatı keçirilib. "Yaşa, Azərbaycan" adlı xeyriyyə konserti, birliyin yaranmasının birinci ildönümünə həsr olunmuş tədbir baş tutub. Qazilər mütəmadi olaraq keçirilən şəhidlərin anım tədbirlərində iştirak etməklə yanaşı, birliyin təşkilatçılığı ilə də tədbirlər təşkil edir, şəhid məzarlarını və ailələrini ziyarət edirlər, o cümlədən gənclərlə görüşlərdə fəallıq göstərirlər.





Birliyin işinin daha da təkmilləşdirilməsi üçün qurumun tərkibində Vətən müharibəsi veteranları ilə iş üzrə şura da yaradılıb. Şuranın hazırda 85 üzvü var. Qeyd edək ki, şuraya 22 il Azərbaycan Silahlı Qüvvələrinin sıralarında cəbhə bölgəsində xidmət edən, hazırda ehtiyatda olan hərbi qulluqçu Malik Cəbiyev rəhbərlik edir.

Onu da qeyd etmək yerinə düşər ki, ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da qazilər və şəhid ailəsi üzvləri hər cür qayğı ilə əhatə olunub. Qazilərin avtomobil və mənzillə təmin edilməsi ilə yanaşı, onların sağlamlığının da qeydinə qalınır. Hər zaman Vətənin keşiyində dayanmağa, Vətən üçün can verməyə hazır olan gənclərimiz üçün hər bir şəhidin və qazinin döyüş yolu vətənpərvərlik məktəbidir. Onların qəhrəmanlığı qanla yazılmış bir igidlik dastanıdır.

**Ramiyə ƏKBƏROVA**



# 100 ilin qəhrəmanları

***“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Culfa rayonunun Culfa şəhərindən olan şəhidimiz Nicat Məmmədlinin anası Minayə Məmmədovanın, Ordubad rayonunun Düylün kəndindən olan şəhidimiz İntiqam Abdullayevin anası Bibixanım Abdullayevanın və Şərur rayonunun Püsyan kəndindən olan şəhidimiz Məmməd Zamanlının anası Firəngiz Zamanlının övladları haqqında xatirələri yer alıb.***

## Nicat Rizvan oğlu Məmmədli

*31.07.1999-04.10.2020*

## Şəhidlik zirvəsinə ucalaraq məni qürurlandırdı





Balaca vaxtından sakit, səmimi olub. O, birinci sinifdə oxuyarkən çox çətinlik çəkmişəm. Yaxşı oxumağını istəmişəm. Arzulamışam ki, ali məktəbə qəbul olsun. Ya da bir peşə öyrənsin. İllər keçdi. Öz arzusu ilə sənədlərini hərbi liseyə təqdim etdik. Yüksək qiymətlərlə qəbul olduğunu eşidəndə buna inana bilmirdim. O qədər sevinirdim ki... Telefonu götürüb yaxınlarımıza zəng vurdum. Xəbər verdim ki, Nicat ən yüksək balla liseyə daxil olub. Deyirdim ki, qoy hər kəs bilsin. Liseydə əlaçı oldu. Müəllimlərinin, kursant yoldaşlarının hörmətini qazandı.

Nicatın çoxlu xatirələri, qeydləri vardır. Ölümündən sonra o qeydləri oxumağa başladım. Oxuduğu hər bir kitabdan xoşuna gələn yerləri ayrıca dəftərə yazıb. Biri belədir: “Hər kəs fərqli şəkildə vida edir bu dünyaya. Arxada qalanların ağrıacısı isə eyni olur. Hər ölüm təəccübləndirir, hər ölüm anidir. Məşhur biri ölərkən deyirlər ki, ölümü çox ani oldu. Daha edəcək çox şeyi vardı. Yalnız yaşlılarmıdır bir ayağı çuxurda olan? Yoxsa hər kəsin doğumundan bir ayağı çuxurdadır?”



Mütaliə etdiyi bütün kitablar fəlsəfi kitablar idi. İndi də onları saxlayıram.

Müharibə başlanmazdan evə gəlmək üçün bilet alır. Amma bizə demir. Bileti geri qaytarır. Müharibə başlayandan deyirdi ki, biz meşədəyik. Heç bir hərbi sirri deməzdi. Mən çox narahat olurdum. Buradan gedən digər gənclərin anaları deyirdi ki, oğlum filan yerdə döyüşür. Mən utanırdım. Elə oğul böyütməmişdim axı... Deyirdim ki, hər kəsin övladı döyüşür, mənim övladım isə meşədədir. Sonra eşitdim ki, Nicat da döyüşür. Bu xəbərə o qədər sevindim ki... Sevindim ki, övladım gizlənməyib. Bəli, mənim də oğlum qəhrəman oldu. Şəhidlik zirvəsinə ucalaraq məni qürurlandırdı! Bugünkü həyatı onlar bizə bəxş ediblər. Nicatın da, digər şəhidlərimizin də ruhları şad olsun!

## İntiqam Allahverdi oğlu Abdullayev

*12.08.1998-03.10.2020*

## Sinəsini Vətənə sipər etdi



İntiqamın o qədər xatirəsi vardır ki... İnanın, hansından başlayacağımı bilmirəm. Oğlum həddindən artıq mehriban, qayğıkeş bir övlad olub. Elə arzularla yaşayırdı ki... Hamısını özü ilə əbədiyyətə apardı. Həmişə deyirdi ki, ana, sən çox əziyyət çəkirsən. Səni elə yaşadacağam ki, bütün çətinliklərin yadından çıxacaq.

İntiqam o qədər səliqəli idi ki, məktəbdə oxuyanda hamı onu nümunə göstərirdi. Həm təhsili, həm tərbiyəsi, həm də səliqəsi ilə bütün uşaqlardan fərqlənirdi.



Hərbçi olmaq onun ən böyük arzusu idi. İntiqam yalnız o arzusuna çatdı. Bu arzuya çatmaq üçün çox çalışdı. Ancaq birinci il hərbi liseyə qəbul ola bilmədi. İkinci il yenidən imtahanlarda iştirak etdi. Bu dəfə hərbi liseyə qəbul oldu və kursant adı qazandı.

Eşitmişdim ki, liseydə idman dərsləri çətin olur. Deyirdim ki, çətindirsə, çıx məktəbdən. Deyirdi ki, ana, elə demə. Mən and içmişəm. Nə andımdan, nə də arzularımdan dönərəm.

Son zamanlar statuslar paylaşırdı. Vətənə qurban getmək, igidlik, qəhrəmanlıq haqqında. Soruşurdum ki, niyə elə şeylər paylaşırsan? Deyirdi ki, ana, səni bəzi şeylərə hazırlaşdırıram. Şəhid olacağını da tez-tez dilə gətirirdi. Elə bilirdim ki, zarafat edir mənimlə.




Müharibə başlayan gün mənə zəng vurub dedi ki, ana, gün bu gündür. Müharibəyə gedirik, haqqınızı halal edin. Dedim ki, oğul, ananın övlad üstündəki haqqı halaldır. Bir daha halal olsun.

Sonuncu dəfə 1 oktyabrda, saat 8-də zəng vurub. Mən evdə olmamışam. Atası ilə danışıb. Deyib ki, biz müharibəyə gedirik. Olar ki, bizə zəng çatmaz. Bizdən nigaran qalmayın. Son danışığı bu olub. Sonra oğlumdan xəbər gəlmədi. Son xəbər şəhidliyi oldu.

Mən oğlumla fəxr edirəm. O oğul ki sinəsini Vətənə sipər etdi. İlk sözü də, son sözü də Vətən oldu. Vətən sağ olsun! Bütün şəhidlərimizin ruhu şad olsun!

## Məmməd Rəhman oğlu Zamanlı

*(03.08.1998-27.09.2020)*

## Vətəni, torpağı, bayrağı seçdi





Məmmədin bütün xatirələri yaddaqalandır. Heç biri unudulası deyil.

Məmməd iki bacının bir qardaşı və çox mehriban, çox da ağıllı idi. Dərslərini də çox yaxşı oxuyurdu. İdmana böyük marağı vardı. Günün müəyyən hissəsini idmana həsr edirdi. Görünür ki, özünü hərtərəfli yetişdirirmiş. Çalışırdı ki, onun haqqında ailəsinə xoşgəlməyən söz deyilməsin.

Məmməd 22 ilə sığan bir ömür yaşadı, amma onun heç bir pis sədasını eşitmədik. Hara gedirdi, özünə hörmət qazanırdı. Əsgərlərinə qarşı da o qədər mehriban olub ki, hər dəfə bizə gələndə xatirələrindən ağızdolusu danışırlar.

Onların qəlbində özünə yer qazanmışdı. Elə bil ki, şəhid olacağını bilirdi. Akademiyanı bitirəndə hər kəs arzularını deyir. Məmməd isə şəhid olmaq arzusunu dilə gətirir. Biz Məmmədin bu diləyini şəhid olduqdan sonra bildik.

Məmməd hər dəfə məzuniyyətə gələndə kənddəki uşaqları başına yığardı. Onlara Vətən, torpaq, bayraq haqqında söhbətlər edərdi. Hərbçi həyatından, idmandan danışardı. Vətənpərvərliyi onlara aşılayırdı. Bir dəfə də olsun, çətinlikdən danışmadı.

Məmməd bacılarını çox sevirdi. Sitarə balaca idi. Dərsdən gələn kimi onunla oynayardı. Atası hey deyərdi ki, qızlarla az oyna. Oğlanlarla oyna, dostluq et. Amma Məmməd bacılarına çox bağlı idi. Onlardan ayrılmaq istəmirdi. Naxçıvanda oxuyanda 15 gündən bir, Bakıda oxuduqda isə ildə iki dəfə evə gəlirdi. Onda da çalışırdı ki, hamıya məhəbbət göstərsin. İstəyirdi ki, hamı ilə maraqlansın.

Məmməd çox gec-gec evə zəng vurardı. Deyirdi ki, tez-tez zəng vururam, sonra da darıxıram.

Son dəfə sentyabrın 24-ü danışdıq. Heç müharibənin olacağını demədi. 27 sentyabrda, saat $9^{20}$-də atasına mesaj yazıb. “Salam, ata, necəsiniz? Kefiniz, əhvalınız? Ata, biz döyüşə gedirik, haqqınızı halal edin”. Son mesajı bu oldu mehriban Məmmədimin. Elə həmin gün şəhid oldu balam. Nə deyə bilərəm ki? Məmməd Vətəni, torpağı, bayrağı seçdi. Məmmədimlə fəxr edirəm!





# Mahiyyəti əsrarəngiz və ecazkar naxışlar səltənəti NAXÇIVAN



Bura dünyanın məhvəri, Nuhun qədəm basdığı, hər küçəsi, hər tini tarix qoxan şəhərdir. Əsrlər boyunca keçilməz qala rolunu oynayan, təbii və memarlıq üslubu ilə göz oxşayan, bir çox fərqli mədəniyyətləri və ünsürləri birləşdirən məkandır. Bu şəhər daşlara hopub, kövrəkliyini qapı başında gizlədən naxışlar səltənətidir. Bu şəhər, şübhəsiz ki, Möminə xatına "qucaq", Yusif Küseyr oğluna "əbədi beşik", Nəimiyə "hüruf", Mirzə Cəlilə "məktəb", Ordubadiyə "qələm", Cavidə "ev" olan qədim türk diyarı Naxçıvandır.

Mahiyyətin necə dərinməzmunlu, əzəmətin necə əsrarəngiz və ecazkardır. Sən könülləri oxşadığın kimi ziyarətinə gələnlərə də məsudluq və məmnunluq bəxş edirsən. Görüşünə gələnlərin qəlbinə sirayət edir, gözlərində ucaldıqca ucalır, gözəlliyinlə hər kəsi heyran edirsən. Sən təkcə şəhər deyil, alimlərinin biliklərini əks etdirən qiymətli sənət əsəri, elmlə sənət arasında körpüsən.

İnsanın yaşadığı yerlə olan bu güclü bağı qırmaq, demək olar ki, mümkünsüzdür. İlk dəfə dünyaya göz açdığımız ev, evin yerləşdiyi küçə, şəhər həmişə xəyallarımızda kiçik bir xatirədən asılaraq təsəvvürümüzdə qalıcı izlər buraxır. Şəxsiyyətimizin, xarakterimizin formalaşmasında aldığımız tərbiyə və təhsil qədər udduğumuz hava, qədəm basdığımız torpağın da dəyəri əvəzsizdir.

Naxçıvan! Bir dost, bir sevgili olduğunu hiss etdiyimiz, hər şeyin insanlarla gözəlləşəcəyini düşünüb insanları ilə sevilən şəhərdir. Bu məğlubedilməz qədim şəhərə ayna tutub, əzəmətini gələcək nəsillərin yaddaşına, qəlbinə və ruhuna əbədi köçürmək hər bir qələm əhlinin arzusudur. Sanki rəssam bahar fırçasını göyqurşağına batırıb, bu torpağın hər dağına, hər daşına sarı bülbüllər, qırmızı güllər çəkərək laləni yanağına şəbnəm qondurub. Bu şəhərdə arılar ləçək üstə bal şehinə bənzəyir. Bura türkün diyarıdır.

Cənab Prezident demişkən: ***"Bizim qarşımızda üfüqlər açıqdır. Necə ki Naxçıvanın səması həmişə açıq-aydın olur, – burada heç vaxt nə tüstü, nə buludlar olur, Naxçıvanın səması həmişə çox təbii rəngdə, çox açıq olur, – eləcə də Azərbaycanın gələcəyi açıqdır, aydındır və biz bu gələcəyə doğru gedirik".***

Bir çox peyğəmbərin məskəninin Naxçıvan olduğunu deyən professor Marti Martincito Fillips "Allah yurdu Naxçıvan" məqaləsində qeyd edirdi ki, Böyük İpək Yolunun məhz Naxçıvandan keçməsi, Ordubadda ipəkçilik ənənəsinin formalaşması tarixin yaddaş salnaməsinə çevrilmiş, heç kimin və heç nəyin real tarixi gerçəkliyi inkar edə bilməyəcəyi bir məntiqi həqiqəti üzə çıxarıb. Yer kürəsinin bu balaca məkanını özünə vətən seçən Nuh Peyğəmbər bu seçimin Allah əmri olduğunu bildirmişdir. Bu torpağın hər qarışı, hər daşı Nuh əlamətlərini bu gün də qoruyub saxlayır. Çünki bu gerçəklik buranın qədim tarixində, dağlarında, gündəlik yaşam tərzində özünü dönə-dönə isbat edir. Başqa cür olsa idi, Nuh Peyğəmbər dünya mədəniyyətinə və dünyanın tarixinə Nuh möhürünü Naxçıvanda vurmazdı. Hər fəsil dəyişdikcə, duman gəldikcə, külək əsdikcə Naxçıvan daha da yeniləşir, həyat simfoniyasının çalarlılığı olan Haçadağla həzin yuxuya gedərək Gəmiqaya ilə şaxə qalxır. Nəhəcirlə zaman süzgəcindən keçərək Arpaçayla axıb Arazın göz yaşlarını yuyur. Bu şəhərə uzaqdan baxanda Allah tərəfindən çəkilən təbiət mənzərəsi hesab etdiyimiz dağlar bizə istehkamı xatırladır. Bu istehkamların qoynunda tarixin ən sirli-sehrli möcüzəsi olan Əshabi-kəhf kök salıb. Burada kəsilən qurbanlar Tanrıya sevgi, yaşadıqları torpağa əbədi məhəbbət və müqəddəslik rəmzi kimi başa düşülür. Dünyanın yaranışından, demək olar ki, Naxçıvanda təbii dağıdıcı hadisələrin olmaması da bu şəhərin əsrarəngiz sehrindən xəbər verir. Buna görə də Naxçıvan tarixi dünya tarixinin müqəddəslik və paklıq rəmzidir ki, Naxçıvanı Allah qoruyur. XVII əsrdə yaşamış Məhəmməd Mufid Mustafi Naxçıvandakı kəhrizlərdən bəhs edərək deyirdi ki, bu sular aydınlıqdır, safdır, müqəddəsdir.

Bu torpaq Möminə xatın kimi abidənin müəllifi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin, Anadoluda Mövlanaya hakimlik edən Əkmələddin Naxçıvaninin, görkəmli filosof Baba Nemətullah Naxçıvaninin, Naxçıvanda ilk məktəb açan Məhəmməd Tağı Sidqinin, dünyaca məşhur kimyaçı alim Yusif Məmmədəliyevin vətənidir. Bu torpaq "Molla Nəsrəddin"in yaradıcısı məşhur yazıçı Cəlil Məmmədquluzadənin, "Mənim Tanrım gözəllikdir, sevgidir", – deyən dahi dramaturq Hüseyn Cavidin, tənqidçi alim Əziz Şərifin, ömrünün baharında həyata gözlərini əbədi yuman realist rəssam Bəhruz Kəngərlinin vətənidir. Bu torpaq qoynuna bomba bağlayan şəhid analarının, cəbhədən nişanlı yolu gözləyən xınalı qızların, saçı ömrünün gəncliyində ağarmış hərbçi xanımlarının və onların bir ömür sevə-sevə andığı həmin qəhrəmanların vətənidir. Və nəhayət, bu torpaq müstəqil Azərbaycan Respublikasının memarı, qurucusu, öndəri, görkəmli dövlət xadimi, dünya miqyasında tanınmış siyasətçi Ulu Öndər Heydər Əliyev kimi bir dahinin vətənidir. Ümummilli Lider naxçıvanlılarla görüşdə deyirdi: ***"Mən istərdim ki, burada Sizinlə daim yaşayım. Ancaq həyat buna imkan vermədi. Mən getdim, amma ürəyim buradadır".*** İllərin bu əvəzsiz yadigarı olan sözlərə insan qəlbən, nəvaziş dolu səcdələr bəxş edir.

Bu şəhərin məğrur duruşundakı naxışlar sanki həzin musiqinin harmoniyasını təşkil edir. Bəlkə də, bu duruş illərin yığılıb qalmış muğamı, şuru, zəfər cəngidir. Əslində, sən elə musiqinin özüsən. Səmt qatarında uyuyan həzin, kövrək musiqi. Bəlkə, musiqidən də ehtişamlısan. Musiqi bir an da olsa, susur, uyuyur, itir, batır. Sənsə Günəş ziyasından qidalanıb günü-gündən gözəlləşir, ayı seyr etdikcə gecəmizə gündüz olursan. Ətrafa səpələdiyin bu təvazökarlıq kəzərən qövsi-qüzeh kimi cilvələnərək tarixin dolanbac yollarına nur çiləyir. Sənə sığınanlara sirli-sehrli dünyanın möcüzəsi, gözyaşını ovcuna tökənlərə bitib-tükənməyən eşq hekayəsi, sirrini verənlərə sirdaşsan. Sevənlər xısın-xısın bir-birinə səni pıçıldayır.

Cavid əfəndi! Sən bir əsr əvvəl etdiyin duanın qəbul olmasının bəxtiyarlığını yaşatdın bizə. Türkiyə Cümhuriyyətinin Prezidenti, Turançılıq sevdası ilə alışıb yanan Rəcəb Tayyib Ərdoğan tərəfindən uyuduğun Naxçıvan torpağında öz şeirinlə yad edildin. Bəlkə də, o şeiri sən hiss etdin deyə səsləndirdi:

*Hər bəladan əsirgə yurdumuzu,*
*Kamran eylə şanlı ordumuzu.*

Bu gün Azərbaycanın naxışlar səltənəti, əsrarəngsiz, valehedici şəhəri, şübhəsiz ki, Naxçıvandır. Eşqi, insanlığı, qonaqpərvərliyi, təvazökarlığı dadanlar barmaq uclarında bu şəhərə üz tutur, sevgini doya-doya yaşayırlar. Hər bir Naxçıvansevər bu şəhərə üz tutanda özünü ya Möminə xatın türbəsinin, ya da bütün acılarını sarıb, həsrətlə bir-birini qucaqlayan Cavidlər ailəsinin uyuduğu məqbərənin qarşısında tapır. Gələnlər məmnunluq, gedənlər bir daha gəlməyin arzusu ilə yanıb tutuşur bu şəhərə. Sən necə ehtişamlı, necə füsunkarsan mahiyyəti əsrarəngiz və ecazkar naxışlar səltənəti, Naxçıvan.

*Möminə xatın türbəsini,*
*Haçadağın zirvəsini,*
*Arazı narazı görmək,*
*Dalğasında yazı görmək.*
*Ürəyindən keçsə əgər,*
*Naxçıvana eylə səfər.*

**Fariz ƏHMƏDOV**
***Naxçıvan Televiziyasının baş redaktoru***

*Məqalə "Şərq qapısı" qəzetinin elan etdiyi "Naxçıvan 100 ildə" yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.*

## "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonasının, ərazisinin xüsusi rejimi təsdiq edilib

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən "Şərq qapısı" qəzetinə bildirilib ki, məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında müvafiq Sərəncam imzalamışdır. Sərəncamın icrası ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 13 mart 2024-cü il tarixli Qərarı əsasında "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonasının, ərazisinin xüsusi rejiminin müəyyənləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması üçün komissiya yaradılmışdır. Komissiya üzvləri və işçi qrupu tərəfindən qoruğun sərhədlərinin və mühafizə zonasının təyin edilməsi ilə bağlı əraziyə baxış keçirilmiş, qoruğun sərhəd və mühafizə zonasını əks etdirən xəritə, həmçinin qoruğun mühafizə zonası, mühafizə rejimi, ərazisinin xüsusi rejimi ilə bağlı müvafiq sənədlərin layihələri hazırlanaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 29 iyun 2024-cü il tarixdə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonasının və ərazisinin xüsusi rejiminin təsdiq edilməsi haqqında Qərar qəbul edilmişdir. Qərarda qoruğun tarix-memarlıq görkəmini, ərazisində yerləşən abidələrin təhlükəsizliyini, onların funksional təyinatını və uzunömürlülüyünü təmin etmək, habelə qoruğun ətrafında formalaşmış təbii landşaftı mənfi vizual təsirlərdən qorumaq məqsədilə qoruğun mühafizə (bufer) zonasının yaradılması, qoruğun Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən idarə edilməsi, qoruğun ərazisində yerləşən dövlət mülkiyyətində olan abidələrin nazirliyin balansında olması, qoruğun hüdudları daxilində yerləşən torpaq sahəsi və üzərindəki tikililərin yeraltı mədəni təbəqələrlə birlikdə xüsusi rejimli sahə hesab olunması və digər mühüm məsələlər öz əksini tapmışdır.

Qərara uyğun olaraq qoruq ərazisində həyata keçirilən işlər Ordubad şəhərinin baş planına, qoruğun statusuna, onun müfəssəl planına, inkişaf konsepsiyasına, tarix-memarlıq görkəminə, planlaşma strukturuna uyğun olmalı və təşəkkül tapmış həcm-məkan ölçülərini pozmamalıdır. Qoruğun ərazisi tarix və mədəniyyət abidələrinin qorunması və istifadəsi, elmi-tədqiqat, təlim-tərbiyə, turizm, istirahət (rekreasiya), habelə ənənəvi sənətkarlıq və sair məşğuliyyət növlərinin nümayişi və inkişaf etdirilməsi məqsədləri üçün istifadə edilir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin müvafiq rəyi olmadan qoruq ərazisində torpaq, söküntü, tikinti-quraşdırma, yenidənqurma, abadlıq və təmir işləri aparılması məhdudlaşdırılmışdır. Qoruğun ərazisində arxeoloji qazıntı işləri aparmaq üçün isə müvafiq icazə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən verilir. Hazırda qoruğun fəaliyyətinin təşkili istiqamətində işlər davam etdirilir.

## Türk dünyasının Zəfər zirvəsi



✍ **Ramiyə ƏKBƏROVA**

Ötən günlərdə Azərbaycanın Zəfər şəhəri Şuşa tarixinin ən gözəl günlərindən birinə ev sahibliyi etdi, türk xalqlarının birliyinə qucaq açdı. Zəfərin şəhərində Zəfər zirvəsini fəth edən türk xalqlarının görüşünə şahid olmaq damarında türk qanı axan hər kəsi sevindirdi.

**Naxçıvandan başlayan missiya Şuşada davam edir**

2009-cu ilin oktyabrında Türkdilli dövlət başçılarının Naxçıvan Zirvə görüşündən başlanan yol Şuşada daha geniş tərkibdə və artıq beynəlxalq statuslu Türk Dövlətləri Təşkilatı (TDT) miqyasında davam edir. Geridə qalan 15 il ərzində türk dövlətləri arasında strateji tərəfdaşlıq yalnız yüksələn xətlə inkişaf edib.Türk xalqlarının bir yumruq kimi birləşməsi yolunda Azərbaycanın atdığı inamlı addımların nəticələri isə göz qabağındadır.

**Beynəlxalq siyasi dialoq məkanına çevrilən Şuşa**

Qürurla qeyd edirik ki, Şuşada start götürən Zirvə toplantısı irəliyə doğru gedən yolun ən şərəfli addımıdır. Otuzillik işğaldan sonra Azərbaycan Ordusunun rəşadəti ilə azad olunan ərazilərdə həyat yenidən başlayır. Cənab Prezidentin dediyi kimi, torpaq öz sahibinin əlində cənnətə dönür, Qarabağa uşaqların gülüşü qayıdır. Cənnət Qarabağ son 4 ildə artıq bölgənin siyasi-iqtisadi mərkəzinə çevrilib. Yaxın gələcəkdə Cənubi Qafqazın, Türk dünyasının, İslam coğrafiyasının nəbzinin məhz Qarabağda vuracağı açıq-aşkar göz önündədir. Ulu Öndərin arzularını bir-bir yerinə yetirən Prezident cənab İlham Əliyevin məqsədyönlü şəkildə həyata keçirdiyi düzgün və qətiyyətli siyasətinin, uğurlu strategiyasının bəhrəsidir bütün bunlar. Şuşa Zirvə görüşündə iştirakçı dövlətlərin genişlənən coğrafiyası onu deməyə əsas verir ki, TDT, həqiqətən, dünya siyasətinə təsir göstərməyə qadir beynəlxalq güc mərkəzinə çevrilməkdədir.

Avropanın mərkəzində yer alan Macarıstan Respublikası və Şimali Kipr Türk Respublikasının da Şuşa görüşündə təmsil olunması bunu deməyə əsas verən amillərdən sayılır.

Ötən günlərdə baş tutan Şuşa görüşü təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının Zəfər zirvəsidir. Belə bir möhtəşəm tədbirin Şuşada – Türk dünyasının mədəniyyət paytaxtında keçirilməsi isə türk coğrafi məkanında inteqrasiyanın dərinləşməsinə, qardaşlıq bağlarının daha da möhkəmlənməsinə stimul olacaq. Bu Zirvə görüşü həm də Azərbaycanın öz ərazi bütövlüyünün bərpası üçün apardığı mübarizədə ona verilən qardaşlıq dəstəyinin, ölkəmizin türk dövlətləri arasında körpü olduğunun göstəricisidir. Müasir Azərbaycan dövlətinin təməlinin qoyulduğu Naxçıvanda ilk addımı 15 il öncə atan Türk Dövlətləri Təşkilatının görüşünün məhz Şuşada – Zəfər şəhərində keçirilməsi həm də siyasi məna daşıyır. Bu gün türk dövlətləri dünyaya bu mesajı verir:

– Şanlı Zəfər qazanan Azərbaycan öz siyasi gücü ilə Zəngəzurdan sülh yolu ilə keçib bütün Türk dünyasını bir-birinə birləşdirən körpü olacaq. TDT-nin ilk addımının atıldığı Naxçıvan Turana açılan qapıya, ümidlərin, xəyalların gerçəyə çevrildiyi məkana dönəcək.



✍ Ceyhun MƏMMƏDOV

# Havuş



## Dünyanı bir ovuca sığdıran kənd

***Nağıl kimi ömür yaşayır Havuş – bir tərəfdən mənfur qonşularımızın bədniyyətli baxışları, digər tərəfdən bu baxışlara fikir verməyən, ömürlərini bu kəndə həsr edən sakinlərin məğrur, ruh yüksəkliyi ilə duruşları bura əlavə güc və ruh verir. Bu ruh Vətənin müqəddəsliyinin, aliliyinin göstəricisidir. Sanki adı kimi ovuc içində yaşayaraq əlləri ilə dağların sinəsinə toxunanda havuşluların dizlərində güc, qüvvət artır. Ürəkləri isə bağlanmayan qapıları kimi hər zaman qonaqlarına açıqdır...***

Bu dəfə yolumuz başı buludlara söykənən, buludlardan nəm çəkən uca dağların qoynunda yerləşən, dağların bir qaş kimi əhatəyə aldığı, sanki ovuc içində olan ucqar kəndimiz Havuşadır. Şərurun bu kiçik yaşayış məntəqəsi dəniz səviyyəsindən 2100 metrdən artıq yüksəklikdə yerləşir. Odur ki, aşırımlı yollarla üzü yuxarı qalxdıqca qulaqlarımız təzyiqdən uğuldayır, gözlərimiz isə üz tutduğumuz kəndi axtarır. Dağlarda buludların axışını seyr etmək, kiçik şəlalələrin dağların ruhuna sanki elə bil, nəğmə dediyini eşitmək mümkündür bu yolda. Dağların sinəsini şırımşırım edən bulaqlar təbiətin qoyununda ecazkar bir rəsm əsəri çəkmək istəyir. Ucsuz-bucaqsız dağların ecazkarlığı daha çox bənzərsiz edir Havuşu. Dağlara baxdıqca, illərin yorğunluğuna qürurla sinə gərən, tariximizi özündə yaşadan və bu nişanəni gələcəyə daşıyan, ruhu özündə gizlədən təbiəti görürsən...

Əslində, yola çıxarkən belə bir mənzərə ilə qarşılaşacağımızı bilirdik. İki saatlıq çətin yolçuluqdan sonra, nəhayət ki, qarşımıza ecazkar bir mənzərə çıxır. Sal qayalı dağların arasında sanki Tanrının açdığı ovucun içində özünə lövbər salan Havuşun mənzərəsini seyr edirik uzaqdan. Evlər hər tərəfdən dağlarla əhatələnmiş kiçik bir təpənin üzərində tikilib. Fərqli rəngdə olan damların üzərinə vuran Günəş şüaları bizi nağıllarda olan keçmişə aparır. Havuşda hər şey keçmişimizi xatırladır. Şəhərin səs-küyündən uzaq olan bu kənd elə şəhərin istisindən də uzaqdadır. Burada hava bir qədər sərindir – kənd hələ də yayı qarşılamayıb.

...Dağlarla əhatə olunan Havuş kəndi düşmənlə təmas xəttində yerləşən yaşayış məkanlarımızdan biridir. Bura bir neçə istiqamət üzrə təmas xəttinə yaxındır. Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində istifadə etdiyi silahların səsi Havuşda daim eşidilib. Lakin düşmənin bu addımı ordumuza güvənən və bu kənddə ömür sürən sadə insanları qorxutmur. Kənd sakini Valeh Musayev deyir ki, düşmən o zamanlar daha çox kəndi və mal-qaranı atəşə tuturdu. Lakin ordumuza olan güvən kənd sakinlərinin rahat həyatının təminatçısıdır: “Doğulandan bu kənddə yaşayıram. Kəndimizin 3 əsrdən çox yaşı var. Elə illər olub ki, bu kəndin yolları hava şəraitinə görə bağlı qalıb, amma biz heç vaxt doğma yurd yerimizi tərk etməmişik. 90-cı illərin əvvəlində mənfur qonşularımızın torpaq iddiaları Havuşdan da yan keçmədi. Lakin biz kəndimizi tərk etmək barədə heç düşünmədik də”.

Mehman Həsənov deyir ki, əvvəllər burada daha çox sakin yaşayırdı. Sonradan onların bəziləri Yeni Havuş kəndinə köçdü: “Yeni Havuş kəndinə köçən kənd sakinlərinin sonradan əksəriyyəti geri qayıtdı. Özüm bu kənddə doğulmuşam, o zamanlar ermənilər Havuşu atəş altında saxlasa da, heç vaxt buranı tərk etməmişəm. Həyatımda hər şeyi burada qazanmışam. Hazırda işləyirəm, 3 ildən sonra təqaüdə çıxacam və yenə də burada yaşayacam”.



1800 hektardan çox ərazisi olan Havuş kəndi dərman bitkiləri ilə zəngindir. Sakinlər deyir ki, dərman üçün lazım olan bitkilərin 70 faizi məhz kəndin ərazisində olan dağlarda bitir. Eyni zamanda kənddə daha çox alma və cəviz ağaclarına rast gəlmək mümkündür.



Əvvəllər Havuş daha çox atəşə tutulurdu, indi isə ciddi bir təhlükə yoxdur. Daha doğrusu, bu təhlükə şanlı Ordumuz tərəfindən məhv edilib. İndi ordumuz lazım olan anda, hər hansı bir təxribat qarşısında düşmənə layiq olduğu cavabı verir. Necə ki 44 günlük Vətən müharibəsində buna şahidlik etdik.



Havuş sakinlərinin başı bu fəsildə kənd qayğılarına qarışıb. Kəndin əkinəyararlı elə də geniş torpaq sahələri yoxdur. Kəndin sakinləri, əsasən, özlərinə məxsus həyətyanı sahələrdə gündəlik tələbatları üçün müxtəlif tərəvəzlər əkirlər. Burada sakinlər, əsasən, maldarlıq və arıçılıqla məşğul olurlar. Evlərin bütün həyətlərində arı yeşiklərinə rast gəlmək mümkündür. Əbülfəz İbrahimov deyir ki, Havuşun balı nəinki Naxçıvanda, Azərbaycanda belə əl-əl axtarılır: “Havuş arıçılıq üçün olduqca əlverişli kənddir. Çünki bu dağlarda növ-növ gül-çiçəyə rast gəlmək olar. Elə buna görə buranın balı min bir dərdin dərmanı olmaqla yanaşı, dadı, keyfiyyəti ilə də fərqlənir. Arıya xidmət göstərmək böyük zəhmət tələb edir. Havuş insanı isə böyük zəhmətkeş və Vətənini sevəndir”.

“Hazırda Havuşda 500-dən çox arı ailəsi var”, – deyərək söhbətə qoşulur Mehman Həsənov. Deyir ki, burada sakinlər qazancı daha çox bu sahədən əldə edirlər. Böyük zəhmət tələb etsə də, arıçılıqda çalışmaq onlara sanki ruhən rahatlıq verir. Daha dəqiq desək, Havuşda yaşayanların çörəyi baldan və maldarlıqdan çıxır.

Hər qayasında təbiətə bir gözəllik bəxş edən Havuş həm də dağlarında olan kiçik şəlalələri ilə məşhurdur. Sakinlər bəzən buna “bəstəkar” şəlalələri də deyirlər. Dərələyəz sıra dağlarından axan buz bulaqlar bu şəlalələri yaradıb. İnsanı sanki nağıllar aləminə aparan, təbiətin möcüzəsi olan bu şəlalələr ilin bu fəslində daha gur axır. Mehman Həsənovun sözlərinə görə kəndin yuxarı hissəsində yerləşən bu şəlalə el arasında “Pir şəlaləsi” kimi də tanınır. Səbəbini isə belə izah edir ki, Tanrı bu kəndə hər bir neməti bəxş edib. Füsunkar təbiətində şəlalələr xüsusi rol oynayır. Bulaqlardan süzülərək gələn bu saf su mənbəyini pirdən götürdüyünə görə elə buna “Pir şəlaləsi” də deyirik. Bu da təbiətin bir möcüzəsidir. Bura ilin bütün fəsillərində, xüsusilə bu fəsildə daha çox qonaqlar gəlir.





# Seçki marafonu – 2024

**1 sentyabr 2024-cü il Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər günüdür**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər 45 seçki dairəsi üzrə keçiriləcəkdir.***

İmza toplamaq məqsədilə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə və siyasi partiyanın səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi qaydaları "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər zamanı deputatlığa namizədliyinin irəli sürülməsi, müvafiq dairə seçki komissiyası tərəfindən təsdiq edilmiş namizədin müdafiəsi üçün seçici imzalarının toplanması və dairə seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında" Təlimat ilə tənzimlənir.

**Namizədlərin müdafiəsi üçün seçici imzalarının toplanması şərtləri**

● Seçicilərin təşəbbüs qruplarının irəli sürdükləri və ya öz təşəbbüsləri ilə irəli sürülən namizədlərin müdafiəsi məqsədilə seçicilərin imzalarının toplanması seçki qanunvericiliyində göstərilən qərarın qəbul edildiyi gündən başlanır. Siyasi partiyalar tərəfindən irəli sürülmüş namizədlərin müdafiəsi məqsədilə seçicilərin imzalarının toplanması seçki qanunvericiliyində göstərilən qərarın qəbul edilməsi günündən başlanır.

● Namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin imzaları toplanmalıdır.

● Hər bir imza vərəqəsində namizədin soyadı, adı, atasının adı, doğum tarixi, əsas iş və ya xidmət yeri və ya tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), yaşadığı yerin ünvanı, irəli sürüldüyü seçki dairəsinin adı (sıra nömrəsi) göstərilməlidir.

Namizədin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda imza vərəqəsində onun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin hansı maddəsi ilə məhkum olunduğu, həmin maddənin adı və nömrəsi, namizədin xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa, xarici ölkənin müvafiq qanununun adı göstərilməlidir.

●İmza vərəqəsində namizədin namizədliyinin irəli sürülməsinə razılıq ərizəsində göstərdiyi siyasi partiyanın adı göstərilə bilər.

●Namizədin müdafiəsi üçün imza toplanmasını müvafiq seçki dairəsi üzrə namizədi irəli sürmüş siyasi partiya həyata keçirirsə, imza vərəqəsində namizədə aid məlumatlarla yanaşı, bu namizədi irəli sürmüş siyasi partiyanın adı göstərilir, namizədin ərizəsində belə məlumat olarsa, onun mənsub olduğu siyasi partiyanın adı və siyasi partiyada onun müvafiq statusu göstərilə bilər.

**Namizədin müdafiəsi üçün seçici imzalarının toplanması qaydası**

● Dövlət orqanlarının, bələdiyyə qurumlarının, mülkiyyət formasından asılı olmayaraq, hüquqi şəxslərin imza toplanmasında iştirakına yol verilmir. İmza toplanması prosesində seçiciləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna görə onları hər hansı formada mükafatlandırmaq qadağandır. Həmin qadağana əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, toplanmış imzaların etibarsız sayılması və namizədin qeydiyyatından, qeydə alınmış namizədlərin qeydiyyatından imtina üçün əsas ola bilər.

● Seçici imzalarını Azərbaycan Respublikasının 18 yaşına çatmış aktiv seçki hüququ olan vətəndaşı toplaya bilər. Namizəd və siyasi partiya seçici imzalarını toplayan şəxslə imza toplanması barədə müqavilə bağlaya bilər. Belə işin haqqı yalnız namizədin, siyasi partiyanın seçki fondu hesabına ödənilə bilər.

●Namizədin müdafiəsi üçün seçici imzaları tədris müəssisələrində, yaşayış yerlərində, eləcə də qanunla seçkiqabağı təşviqat aparılmasının qadağan edilmədiyi digər yerlərdə toplana bilər.

● Seçici imza vərəqəsində imza edərkən soyadını, adını, atasının adını, doğum tarixini, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini, imza etdiyi tarixi göstərir. İmza edən seçicilər barəsində qeyd edilməsi zəruri hesab olunan məlumatlar imza toplayan şəxs tərəfindən imza vərəqələrinə daxil edilə bilər. Göstərilən məlumatlar əllə yazılır və onların yayılmamasına təminat verilir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə deputatlığa namizədin müdafiəsi üçün onun namizədliyinin irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 300 imzası toplanmalıdır.***

●Namizədin müdafiəsi üçün seçici imzaları toplanarkən imzalar imza vərəqəsinin üz və ya arxa tərəfində qoyulur. Belə olduqda arxa tərəf vərəqənin üz tərəfinin davamı hesab edilir və təsdiqedici imzalar vərəqənin arxa tərəfində qoyulur.

●İmza toplandıqdan sonra imza vərəqəsi imza toplayan şəxs və namizəd tərəfindən imzalanır. İmza toplayan şəxs imza vərəqəsinə imza qoymazdan əvvəl soyadını, adını, atasının adını, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini göstərir.

●Namizəd siyasi partiya tərəfindən irəli sürülübsə, imza toplandıqdan sonra imza vərəqəsi imzaları toplayan şəxs və siyasi partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır. İmzaları toplayan şəxs imza vərəqəsində imza qoymazdan əvvəl soyadını, adını, atasının adını, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini göstərir, müvafiq səlahiyyətli nümayəndə isə soyadını, adını, atasının adını və imza qoyulması tarixini göstərir.

***Bir seçici birdən artıq namizədin müdafiəsi üçün imza ata bilər.***

●Namizəd irəli sürmüş siyasi partiya, seçicilərin təşəbbüs qrupu müvafiq seçki komissiyasına eyni şəxsin namizəd irəli sürülməsi haqqında yazılı məlumat verdikdən sonra namizədin müdafiəsi üçün seçicilərin lazım olan sayda imzalarını birgə toplaya bilərlər. Bu halda namizədin irəli sürülməsinin müdafiəsi üçün müxtəlif şəxslərin topladığı seçici imzalarının cəmləşdirilməsinə icazə verilir.

●Namizədin irəli sürülməsinin təşəbbüsçüləri, namizədin və ya siyasi partiyanın səlahiyyətli nümayəndələri irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzalarının sayını hesablayır, seçici imzalarının toplanması nəticələri haqqında protokolu tərtib edir və imzalayırlar.

● Müvafiq seçki komissiyalarına təqdim edilən imza vərəqələri nömrələnməli və ardıcıl tikilməlidir.

**Namizədin qeydə alınması üçün seçki sənədlərinin təqdim edilməsi**

● İrəli sürülmüş namizədlərin qeydə alınması üçün namizəd və ya siyasi partiyanın səlahiyyətli nümayəndəsi səsvermə gününə ən çoxu 45 və ən azı 25 gün qalmış saat $18^{00}$-dək müvafiq seçki komissiyasına aşağıdakı seçki sənədlərini təqdim etməlidir:

1. İrəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri;
2. Seçici imzaları toplanmasının yekunu haqqında Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada tərtib edilmiş protokolun 2 nüsxəsi;
3. Seçki qanunvericiliyinin maddələrinə uyğun olaraq namizəd haqqında təqdim edilmiş məlumatlarda dəyişikliklər barədə bildiriş;
4. Namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat;
5. Mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumat;
6. Namizədin ilkin maliyyə hesabatı (seçici imzaları toplanmasının təşkilinə sərf edilən vəsait haqqında məlumatlar göstərilməklə).

***Seçki qanunvericiliyində göstərilən sənədlərdə qəsdən buraxılmayan səhvlər aşkar edilərsə, müvafiq seçki komissiyası namizədi 48 saat müddətində məlumatlandırmalı və buraxılan səhvlərin düzəldilməsini təklif etməlidir.***

●Namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi bəyannamə formasında, seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən əvvəlki birillik dövr üçün təqdim olunur. Eyni zamanda gəlirlərin alındığı təşkilatlardan həmin gəlirlərin illik cəmi barədə arayış təqdim edilir. Əmlak və gəlirlər haqqında dərc edilməli məlumatların siyahısını Mərkəzi Seçki Komissiyası müəyyənləşdirir.

●Seçki komissiyaları seçki sənədlərini qəbul edərkən imza vərəqələri olan hər bir qovluğu möhürü ilə təsdiqləyir, təqdim olunmuş imza vərəqələri sayının seçici imzaları toplanmasının yekunu haqqında protokola uyğunluğunu yoxlayır, sonra isə onların qəbul edilmə tarixini və vaxtını qeyd edərək namizədə və ya siyasi partiyanın səlahiyyətli nümayəndəsinə qəbul edilmiş imza vərəqələrinin sayını, oradakı imzaların sayını göstərməklə sənədlərin qəbulu barədə yazılı arayış verir. Həmin şəxslər tərəfindən müvafiq seçki komissiyasına müvafiq sənədlər seçki qanunvericiliyinin maddələrində göstərilmiş müddət başa çatanadək təqdim edildikdə onların qəbul edilməsindən imtina edilə bilməz, namizədin, siyasi partiyanın səlahiyyətli nümayəndəsinin müvafiq binaya (otağa) daxil olmasına məhdudiyyət qoyula bilməz.

*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti*

## Naxçıvanda keçirilən velosiped yarışının tək qadın iştirakçısı



Naxçıvanda keçirilən velosiped yarışına 100-dən çox həvəskar velosipedçi qatılıb. İştirakçılar arasında 10 kilometr məsafədə birincilik uğrunda mübarizə aparan yeganə qadın velosipedçi isə ***Zöhrə Sadiqova*** olub.

Son bir ildə işə velosipedlə gedib-gələrək Naxçıvanda çox insanın velosipedə münasibətini dəyişən və təşkil olunan yarışın yeganə qadın iştirakçısı təəssüratlarını "Şərq qapısı"qəzeti ilə bölüşüb: – İnsanlar tərəfindən mənfi rəylərlə yanaşı, müsbət rəylər də alıram. Təbii ki, insanların müsbət rəyləri məni daha da ruhlandırır. Ümumiyyətlə, hər zaman demişəm – velosiped sürmək insan sağlamlığına da xeyirdir. Hazırda Naxçıvan Müəllimlər İnstitutunda Nəşriyyat direktoru vəzifəsində çalışıram. 29 yaşımın olmasına baxmayaraq, işə daim velosipedlə gedirəm. Artıq bu mənim həyat tərzimə çevrilib. Burada ailəmin də dəstəyi böyükdür, heç nəyin əngəl olduğunu düşünmürəm. Qadınlara tövsiyəm odur ki, daim cəsur olsunlar, istəklərini, arzularını çəkinmədən həyata keçirsinlər.

✍ **Bülbül QULİYEVA**

## Naxçıvan Dövlət Universitetinin nəzdində İngilis dili Təmayüllü Gimnaziya 2024-2025-ci tədris ili üçün şagird qəbulu elan edir

Gimnaziyaya şagird qəbulu cari ildə Naxçıvan Muxtar Respublikasının əhatə etdiyi ümumtəhsil müəssisələrinin V sinfini bitirmiş oğlan və qız şagirdləri arasında müsabiqə yolu ilə aparılır. Gimnaziyaya qəbul olmaq üçün aşağıdakı sənədlər tələb olunur:

- *Şəxsiyyət vəsiqəsinin surəti*
- *3x4 santimetr ölçüdə 2 ədəd foto-şəkil*
- *Təhsil aldığı məktəbdən arayış.*

Sənədlər 8 iyul 2024-cü il tarixdən 10 avqust 2024-cü il tarixə qədər saat $9^{00}$-dan $18^{00}$-dək Naxçıvan Dövlət Universitetinin nəzdində İngilis dili Təmayüllü Gimnaziyada qəbul ediləcəkdir.

Müsabiqə 20 avqust 2024-cü il tarixdə Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsində saat $10^{00}$-da keçiriləcəkdir. Müsabiqədə şagirdlərə 3 saat vaxt veriləcəkdir.

Şagirdlərin nəzərinə çatdırılır ki, gimnaziyaya qəbul üçün keçiriləcək müsabiqə test formatında aparılır. Müsabiqədə şagirdlərə:

- Azərbaycan dili – 20
- Riyaziyyat – 25
- İngilis dili – 35
- Tarix – 10
- Təbiət – 10

**Cəmi: 100 sual**

Muxtar respublika üzrə 30 qız, 30 oğlan olmaqla ən yüksək nəticə göstərən 60 şagird gimnaziyaya qəbul olunacaqdır.

***Əlaqə nömrəsi: 550-50-16***
***070-577-67-71***

### *İtmişdir*

Babək rayonu, Babək şəhər sakini Bayramov Heydər Allahverdi oğlunun adına olan JN-543 nömrəli, 10301018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Əliabad qəsəbəsi 5 ünvanında "Araz Karqo" Məhdud Məsuliyyətli Cəmiyyətinin adına verilən 19866 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Parağa kənd sakini Alməmmədov Oruc Fətullah oğluna məxsus JN-38A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Külüs kəndində Məmmədov Yaşar Əjdər oğlunun adına verilmiş JN-265A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Əliyev Ələsgər Murtuz oğlunun adına olan 24 dekabr 2008-ci il tarixli AA-002812 nömrəli plan-ölçü və 5 yanvar 2009-cu il tarixli MH-0010771 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Nursu kəndində yaşamış Məmmədov Qəzənfər Rəsul oğlunun adına olan JN-75A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Fətullayeva Münəvvər Abdulla qızının adına olan JN-1286A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Vərməziyar kənd sakini Abdullayev Kərəm İsgəndər oğlunun adına olan JN-153A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Babək qəsəbə sakini Abbasova Emilya Cəlil qızının adına verilmiş 6 iyun 2013-cü il tarixli AA-005549 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kalbaoruc Dizə kənd sakini Məmmədov Məmməd Ələsgər oğluna məxsus olan JN-20A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sultanova Vəfa Xaqani qızının adına Babək rayon Qoşadizə kəndində olan torpaq sahəsinin MH-0054335 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Qasımov Ədalət İsrafil oğlunun adına olan JN-1170A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Dünyamalıyev Mətləb Valeh oğlunun adına olan avtomobilin 67 BB 857 dövlət nömrə nişanı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: SARA ƏZİMOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov, Məcid Əkbərov
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 195